YENİ MÜSAVAT
www.musavat.com
Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20 may 2016-cı il Cümə № 109 (6430) Qiymәti 60 qəpik

**Xəbər**

**Daha bir ailə dramı: kişi arvadını öldürdü, sonra intihar etdi**

yazısı səh.10-da

## Gündəm

**Kərəm Həsənovun səlahiyyətləri dayandırıldı-fərman**



**Prezidentin Əmlak Komitəsi ilə bağlı qərarından:** "Bu fərman qüvvəyə mindiyi gündən komitə dövlət əmlakının özəlləşdirilməsi haqqında qərar qəbul edilməsini dayandırsın"

yazısı səh.3-də

**Məktəb direktorunun və xanımının adı intihar işində**

yazısı səh.10-da

**Əfqanıstandakı təyyarə qəzasında ölən pilotların adları açıqlandı**

yazısı səh.3-də

**Azərbaycanda "qəhrəman analar"ın az olmasının səbəbi - sosial vəziyyət, yoxsa...**

yazısı səh.15-də

**Gözlər ABŞ-da: iyunda dolların faizi artırıla bilər**

yazısı səh.10-da

**Amerika Azərbaycanı Xəzərdə gücləndirir**

yazısı səh.4-də

**Ombudsman nümayəndələri həbsdəki NİDA-çılarla görüşdü**

yazısı səh.10-da

**MSK İlqar Məmmədovla bağlı yekun qərar verdi**

yazısı səh.2-də

**Bakıda kredit borcunu silən haker dəstəsi tutuldu**

yazısı səh.10-da

**Qazağın icra başçısı işdən çıxarıldı**

yazısı səh.3-də

**Ermənilərin hədəfə aldığı Mingəçevirdən reportaj**

yazısı səh.6-da

**Göylərdə ölənlər-təyyarə qəzaları...**

yazısı səh.13-də

## Ya sülhün önü açılacaq, ya da müharibənin donu!

# QARABAĞ DANIŞIQLARI MƏXFİ FAZAYA KEÇİR - KRİTİK GƏLİŞMƏ

22 ildə ilk hərbi qələbəni dadan Azərbaycan xalqının əsas gözləntisi prosesin hərəkətverici qüvvəsinə çevrilir; Kreml və İrəvan çıxılmazda; işğalçını müşahidə kameraları yox, işğala son qoyması xilas edə bilər!; Putin Sərkisyanı güzəştə hazırlayır?..




yazısı səh.5-də

## Məhbus ailələri üçün özəl gün-amnistiya aktı bu gün qəbul olunacaq

10 min məhbusu əhatə edəcək sənəd Milli Məclisin müzakirəsinə verilir; deputatlar mövqelərini açıqladılar

yazısı səh.3-də



*Sabir Rüstəmxanlı:*

**"Hamı elə bilib ki, məndən arxalı adam yoxdur"**

yazısı səh. 8 və 9-da



**Əli İnsanov amnistiyaya düşə bilər**

yazısı səh.7-də



**Binəli Yıldırım baş nazir yolunda**

yazısı səh.3-də



## Lukaşenko MDB-ni Qarabağla daha fəal məşğul olmağa çağırdı

**Belarus prezidenti Aleksandr Lukaşenko MDB ölkələrini Dnestryanı, Dağlıq Qarabağ problemləri və birlik üçün digər vacib məsələlərin həlli ilə daha fəal məşğul olmağa çağırıb.**

BELTA xəbər verir ki, bu barədə A.Lukaşenko Minskdə keçirilən MDB-yə üzv ölkələrin təhlükəsizlik və xüsusi xidmət orqanlarının rəhbərləri Şurasının 40-cı iclasında nümayəndə heyətlərinin rəhbərləri ilə görüşündə deyib.

"Biz onları görməsək, bu xəstəlikləri müalicə eləməsək, onlar daha da dərinə gedəcəklər", - deyə Belarus dövlət başçısı xəbərdarlıq edib.

O, MDB ölkələrinin bu və digər aktual məsələlər üzrə dialoq üçün səy göstərməli olduqlarını vurğulayıb.

"Danışıqlar aparmaq lazımdır. Heç yerə qaçmayacağıq, hamımız eyni qayıqdayıq. Sahildə də bizi xüsusi kimsə gözləmir. Öz həyatımızı qurmalıyıq", - deyə A.Lukaşenko bildirib.

Onun sözlərinə görə, bu baxımdan MDB ölkələri xalqlarının mentalitet yaxınlığı məsələnin həllinə kömək edəcək.

## Azərbaycanın dostu İsrailin müdafiə naziri olacaq



**Avigdor Libermanın İsrailin müdafiə naziri vəzifəsinə təyin edilməsi məsələsi üzrə danışıqlar başa çatmayıb və sabah (20 may) davam edəcək. Bunu "Trend"ə İsrail hökumətindəki mənbə deyib.**

Onun sözlərinə görə, danışıqları şənbə gününədək başa çatdırmaq planlaşdırılır və bununla bağlı böyük nikbinlik var, çünki əsas bəndlər üzrə razılaşmalar əldə olunub.

Yekun razılaşma əldə olunsa, gələn həftə Knessetin ilk iş günündə A.Liberman İsarilin yeni müdafiə naziri elan ediləcək.

Virtualaz.org xatırladır ki, Liberman 2013-2015-ci illərdə İsrailin xarici işlər naziri olub. O, Azərbaycanın İsraildə əsas tərəfdaşlarından hesab olunur.

## Türkiyədə terror aktı törədildi

**Türkiyənin Nusaybin bölgəsinin Yenişehir məhəlləsində terrorçu PKK qruplaşmasının qazdığı çuxurlardakı əldəqayırma partlayıcı qurğunun partlaması nəticəsində 9 əsgər yaralanıb.**

Türkiyə KİV xəbər verir ki, yaralılardan 3-nün vəziyyəti ağırdır.

Yaralı əsgərlər xəstəxanaya yerləşdirilib. Vəziyyəti ağır olan yaralılardan bir hospitalda həyatını itirib.

Məlumata görə, hadisə əsgərlər terrorçuların məhəllədə qazdıqları çuxurları doldurarkən baş verib.

## NİDA-çılar həbsdə qaldı

**Mayın 19-da Bakı Apelyasiya Məhkəməsində Qiyas İbrahimovun və Bayram Məmmədovun şikayətlərinə baxılıb. Vəkil Elçin Sadıqovun APA-ya verdiyi məlumata görə, məhkəmə şikayətləri təmin etməyib.**

Qeyd edək ki, Qiyas İbrahimov və Bayram Məmmədov Cinayət Məcəlləsinin 234-cü (qanunsuz olaraq narkotik vasitə əldə etmə, saxlama, satma) maddəsinə əsasən ittiham olunurlar. Xətai Rayon Məhkəməsinin qərarı ilə onların hər biri barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Apelyasiya şikayəti həmin qərardan verilib. Şikayətdə qərarın ləğvi və onların azadlığa buraxılması istənilib.

## 2 milyon manat özəl TV-lər arasında bölüşdürüldü

**Milli Televiziya və Radio Şurasının (MTRŞ) növbəti iclası keçirilib. Qurumun mətbuat xidmətindən modern.az saytına verilən məlumata görə, iclasda Azərbaycan Respublikasında özəl teleradio yayımçılarına birdəfəlik maliyyə yardımı göstərilməsi haqqında Azərbaycan Prezidentinin 12 may 2016-cı il tarixli sərəncamına uyğun olaraq, teleradio yayımçılarına maliyyə yardımının ayrılması məsələsi müzakirə olunub.**

2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Milli Televiziya və Radio Şurasına ayrılmış 2 (iki) milyon manat vəsaitin özəl televiziya yayımçılarına (ATV, ANS TV, Xəzər TV, Space TV, Lider TV, Region TV) bərabər şəkildə ayrılması barədə qərar qəbul edilib.

# Tofiq Yaqublu Gürcüstana getdi

**Müsavat başqanının müavini Tofiq Yaqublunun ölkədən çıxışına icazə verilməyib. Modern.az saytı xəbər verir ki, bu haqda T. Yaqublu özü məlumat verib: "Məni şərləyərək həbs etdilər. Bu üzdən Nərgizimin nə gəlin köçəndə yanında ola bildim, nə də həyatdan köçəndə. Həyatımın 3 il 2 ayını çaldılar. Həbsdən çıxdıqdan sonra ilk dəfə doğma el-obama, Borçalıya, dünyanın ən gözəl kəndi İncəoğluya gedirdim. Həm qohum-qardaşla görüşməyə, həm də vacib hüzr məclisində iştirak etməyə.**



Amma zibillik içində olan Sınıq Körpü sərhəd məntəqəsində bildirdilər ki, mənə "stop qoyulub", ölkədən çıxa bilmərəm. İndi bunlara nə deyəsən?"

Günün sonunda məlum olub ki T.Yaqublunu sərhəddən buraxıblar.

Xatırladaq ki, İ.Məmmədovla T.Yaqublu 2013-cü ilin yanvarında İsmayıllıda baş vermiş kütləvi iğtişaşların təşkilində ittiham olunublar.

İlqar Məmmədov 7, Tofiq Yaqublu isə 5 il müddətinə azadlıqdan məhrum edilib.

Apelyasiya Məhkəməsi hökmü ədalətli saysa da, 2015-ci ilin oktyabrında Ali Məhkəmə kasasiya şikayətinə baxaraq işi təkrar baxılmaq üçün Şəki Apelyasiya Məhkəməsinə göndərmişdi.

T.Yaqublu bu ilin mart ayında prezidentin imzaladığı əfv sərəncamı ilə azadlığa çıxıb.

## MSK REAL Hərəkatı sədrinin müraciətinə baxıb

**Mərkəzi Seçki Komissiyasının (MSK) iclasında 90 saylı Ağdaş seçki dairəsi üzrə Milli Məclisə təkrar seçkilərdə namizədliyini öz təşəbbüsü ilə irəli sürən REAL Hərəkatının sədri İlqar Məmmədovun müraciətinə baxılıb. "Report" xəbər verir ki, İ.Məmmədov MSK-ya müraciətində onunla bağlı çıxarılan qərarın ləğvini xahiş edib. MSK üzvü Qabil Orucov deyib ki, namizədliyin irəli sürülməsi zamanı zəruri seçki sənədləri təqdim olunmalıdır:**

"Əgər bu sənədlər dolğun təqdim edilmirsə, şəxsin namizədliyi qeydə alına bilməz. Məlum olub ki, namizədliyin qeydə alınması üçün sənədləri Dairə Seçki Komissiyasına səlahiyyətli nümayəndə deyil, başqa bir şəxs təqdim edib. O, həm də məhkumdur. Dairə Seçki Komissiyası isə yalnız onun məhkum olduğunu əsas gətirərək namizədliyini qeydə alıb".

**MSK sədri Məzahir Pənahov deyib ki, Seçki Məcəlləsinə əsasən, barəsində həbs qərarı olan şəxslər seçkidə iştirak edə bilməzlər:** "Dairə Seçki Komissiyası İlqar Məmmədova Şəki Apelyasiya Məhkəməsinin qərarından əvvəl imza vərəqələri verib. Yəni ona şərait yaradılıb. Məhkəmənin həbs qərarından sonra isə onun namizədliyi qeydə alına bilməzdi".

MSK üzvü Q.Orucov bildirib ki, DSK-nın qərarı dolğun olmadığından ləğv edilməlidir, İ.Məmmədovun da namizədliyinin qeydə alınması əsassız hesab edilsin.

Qərar səsvermə çıxarılaraq qəbul edilib.

## Taleh Bağırov barəsindəki maddə dəyişdirilib

**"Müsəlman Birliyi Hərəkatı"nın sədri Taleh Bağırov barəsində olan cinayət işinin maddəsi dəyişdirilib.**

Bu haqda modern.az saytına məlumat verən vəkil Cavad Cavadov bildirib ki, cinayət işinin istintaqı yekunlaşmaq üzrədir və yaxın vaxtlarda iş marerialları ilə tanış olma mərhələsi başlanacaq:

"Taleh Bağırova yekun ittiham elan olunaraq onun ittiham edildiyi 214-cü (terrorçuluq) maddə 28, 214-cü (terorçuluğa hazırlıq) maddəsinə tövsif olunub".

Daxili İşlər Nazirliyi 2015-ci il noyabrın 26-da Bakı şəhərinin Nardaran qəsəbəsində xüsusi əməliyyat keçirilib. Əməliyyat zamanı polis əməkdaşlarına silahlı müqavimət göstərilərək avtomat silahlardan atəş açılıb, əl qumbarası atılıb. Hücum edənlərin davamlı atəşinə cavab olaraq xüsusi əməliyyat qrupu tərəfindən xidməti silahdan istifadə edilməklə cinayətkar dəstənin 4 üzvü məhv edilib, daha bir neçə nəfəri yaralanıb. Əməliyyatın keçirildiyi ərazidə silahlı cinayətkar dəstənin tərəfdarlarının çoxalmasına baxmayaraq, polis işçiləri öz xidməti vəzifələrini sonadək mərdliklə yerinə yetirib, 2 əməkdaş qəhrəmancasına həlak olub. Hadisə yerindən maddi sübut kimi xeyli sayda avtomat silah, əl qumbarası, soyuq silahlar və s. götürülüb. Cinayətkar dəstənin, Taleh Bağırov başda olmaqla, 14 üzvü saxlanılaraq istintaqa təqdim edilib. T.Bağırov barəsində dörd ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Aprelin 7-də Nəsimi Rayon Məhkəməsində T.Bağırov barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddəti 3 ay uzadılıb. Məhkəmə qərarından apelyasiya şikayəti verilib. Bakı Apelyasiya Məhkəməsi şikayəti təmin etməyib.






## "Bakcell"də yeni rəhbər təyinatı

### Şirkət uşaqlar üçün internetdən istifadənin daha təhlükəsiz olmasını təmin edən yeni internet paketlərini istifadəyə buraxıb

**"Bakcell" şirkətinə yeni baş icraçı direktor təyin olunub. Yeni direktor 20 illik beynəlxalq təcrübəyə malik olan Nikolay Bekersdir. Musavat.com xəbər verir ki, bu barədə mayın 19-da "Bakcell" şirkətinin keçirdiyi mətbuat konfransında bildirilib. Qeyd edilib ki, yeni direktor səlahiyyətlərinin icrasına may ayının əvvəlindən başlayıb. Telekommunikasiya sahəsində bir sıra rəhbər vəzifələrdə çalışmış Nikolay Bekers "Bakcell" şirkətinin baş icraçı direktoru təyin olunmazdan əvvəl Rumıniya və Almaniyada "Deutsche Telekom" telekommunikasiya qrupunun baş icraçı direktoru vəzifəsində çalışıb. Həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə 20 illik zəngin beynəlxalq təcrübəyə malik olan Bekers "T-System Fransa" şirkətinin prezidenti, "Makedonski Telecom" şirkətinin baş icraçı direktoru, "Deutsche Telecom France SAS" şirkətinin prezidenti vəzifələrində işləyib.**

"Son zamanlar dünyada yaşanan çətin iqtisadi vəziyyət Azərbaycandan da yan keçməyib. Telekommunikasiya sahəsi Azərbaycan iqtisadiyyatında əhəmiyyətli yer tutur və şübhəsiz ki, mövcud iqtisadi durum bu biznes sahəsinin qarşısında da çətin və mürəkkəb vəzifələr qoyur. Buna baxmayaraq, "Bakcell" ölkənin telekommunikasiya bazarında olduqca güclü mövqeyə sahibdir və mən inanıram ki, biz öz şəbəkəmizə və yeni xidmətlərə investisiya qoyuluşlarını davam etdirərək, bu çətinliklərin öhdəsindən gələcək və "Bakcell" şirkətinin peşəkar və səmimi işçi heyəti ilə birlikdə daha böyük və parlaq nəticələrə nail olacağıq" deyə, "Bakcell" şirkətinin yeni baş icraçı direktoru Nikolay Bekers bildirib.

Mətbuat konfransında həmçinin "Bakcell" şirkəti tərəfindən uşaqlar üçün internetdən istifadənin daha təhlükəsiz olmasını təmin edən yeni internet paketlərinin istifadəyə buraxıldığı elan edilib. Qeyd edilib ki, şirkətin təklif etdiyi yeni internet paketləri və «Enginet» şirkətinin təklif etdiyi "İnternet Filtrasiya Xidməti" sayəsində "Bakcell" abunəçiləri öz uşaqlarının internetdən təhlükəsiz istifadə etməsini təmin edə biləcəklər.

❑ **Xalidə GƏRAY**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

**"Qaya Mətbuat Yayımı" MMC!**

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

YENİ MÜSAVAT
N 109 (6430) 20 may 2016

# Bu gün amnistiya aktı qəbul olunacaq

## Zahid Oruc: "Birinci xanımlıq budur"
## Fərəc Quliyev: "Qəbul olunacağı tam gözlənilənədir"

**Azərbaycanın birinci xanımı, Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın mayın 17-də irəli sürdüyü amnistiya aktı bu gün parlamentin müzakirəsinə çıxarılacaq. Belə bir xoşməramlı aktın qəbul olunacağı şübhəsizdir. Çünki amnistiya kimi müsbət təşəbbüsün irəli sürülməsi və qəbulu hər bir ölkə üçün mühüm əhəmiyyət daşıyır.**



İstər ölkə daxilində, istərsə də xaricdə bu addım müsbət qarşılanır. Eyni zamanda ölkəmizdəki rəqib düşərgələr arasında da barış mühiti yaradır. Ermənistanla münasibətlərin gərginləşdiyi vaxtda amnistiyanın qəbulu Azərbaycan hakimiyyətinin daxili və xarici siyasətdə mövqelərini gücləndirmək baxımından vacibdir.

**İqtidaryönlü deputat Zahid Oruc** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, amnistiya təşəbbüsünün irəli sürülməsi 28 May Respublika Gününə olan münasibətin göstəricisidir: "Heç şübhəsiz ki, bu, Azərbaycanın demokratik respublika quruculuğuna, ilk müstəqil dövlətimizin yaranmasına münasibətini əks etdirdiyindən bizim üçün tarixi əhəmiyyət daşıyır. Törətdikləri cinayətlərə görə məhbus həyatı yaşamağa məcbur olan insanlar barəsində belə tarixi gündə mühüm qərarın verilməsi, onlara bu günü aşılamaq, həyatlarına şans qazandırmağın özü də böyük məna daşıyır. Bu, Azərbaycanın 1-ci xanımının təşəbbüsü ilə baş verdiyindən Azərbaycan qadınının cəmiyyətdə barışdırıcı, birləşdirici mövqeyini gücləndirir. Etiraf etmək lazımdır ki, Mehriban xanım cənab prezidentin yürütdüyü siyasətə onun təkcə xanımı kimi deyil, eyni zamanda bir dövlət adamı, ölkəmizi beynəlxalq aləmdə uğurla təmsil etməyi bacaran çevik bir şəxs kimi yerini möhkəmləndirib. Əslində birinci xanımlıq budur. Məhbəsdə həyatlarının bir saniyəsi günlərə, aylara bərabər olanlar üçün bir qapı açılır. Onlara fürsət verilir ki, azadlığa dönsünlər. Bu, həm də dövlətə münasibəti cəmiyyətdə möhkəmləndirir. Amnistiya ilə azad olunanlara əslində deyilir ki, dövlətə münasibətinizi düzgün qurun. Əslində amnistiya dövlət və vətəndaş münasibətlərinin qurulması baxımından da əhəmiyyət daşıyır. Bununla bağışlama institutu özünü bir daha göstərir. Belə addımları şübhəsiz ki, daim dövlətdən gözləyirik. Biz daim deyirik ki, bəzən məhkəmələr ən sərt qərarlar seçirlər. Düşünürəm ki, hüquq sisteminin təkmilləşdirilməsi yolunda mühüm addımlar atmalıyıq. Bəzən inzibati xarakter daşıyan cəzanı illərlə həbs cəzası ilə yekunlaşdırırıq. Bu isə məhbusların sayının artmasına səbəb olur. Amnistiya ilə dövlət, ictimai və məhkəmə institutları bir mövqeyə gəlmiş olurlar ki, Azərbaycanda birgə yaşayışın formasını yalnız bu cür tapa bilərik. Qəddarlığa qəddarlıq, düşmənçiliyə düşmənçilik yol deyil. Birliyimiz hamımızın bir-birimizə olan münasibətindən keçir. İndi növbə siyasi qüvvələrindir. Onlar da bir-birilərinə doğru addımlar atmalıdırlar. Başa düşməliyik ki, həmişə cəza olacaq. Əks halda, cəmiyyətdəki tarazlığı qorumaq olmaz. İndiyə qədər ayrı-ayrı şəxslərin azadlığa buraxılmasını Mehriban xanıma və cənab prezidentə əfv üçün göndəririk. Amma qələmə sarılıb həmrəylik göstərməkdən öncə o cinayətlərin baş verməməsi mümkündür. Bunun qarşısını almaq üçün müvafiq qurumlar üzərinə düşən işləri yerinə yetirməlidirlər. Bu halda cinayətlərin sayı azalmış olacaq. Buna görə də Milli Məclisdə amnistiya qərarını müdafiə edənlərdən biri olacam. Bir daha Mehriban xanıma milli birlik yaradan təşəbbüsünə görə təşəkkür edirəm. Təkcə bu qərarın əhatə dairəsinə düşən insanlar yox, hər kəs sevinəcək. Çünki konkret maddələri əhatə edir".

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev bütün mənalarda amnistiyanın tərəfdarı olduğunu söylədi:** "Azərbaycanda barışa söykənən sabitlik olmalıdır. Bütün istiqamətlərdə olan narazılıqlar aradan qaldırılmalıdır. Xüsusilə siyasi sistemdə olan narazılıq. Həbsə ağır maddələrlə düşməyən, cəzaları yüngül olan məhbuslara ailələrinin qarşısında bir şans verilməlidir. Onların öncəliklə ailələrini düşünmək lazımdır. Uzun müddət həbsdə qalan məhbusları azadlığa buraxmaq vacibdir. İstərdim ki, bu amnistiya geniş olsun. Müzakirəyə çıxarılanda, təbii ki, düşünmədən ləhinə səs verəcəm. Qəbul olunacağı tam gözlənilənədir. İndiyə qədər 4 dəfə Mehriban xanım belə təşəbbüslərlə çıxış edib. Heç zaman geri qaytarılmayıb. Deputatların əksəriyyəti mənim kimi düşünür ki, cəmiyyətdə sabitlik lazımdır. Azərbaycan kiçik bir ailədir. İstanbulun yarısı qədərdir. Belə aktlar ölkəmizin xeyrinədir".

**Xatırladaq ki, 10 min məhbusu əhatə edəcək amnistiya qəbul olunarsa, 3500 məhkum azad olunacaq.**

❑ **Cavanşir ABBASLI**



## Qazağın icra başçısı işdən çıxarıldı

**Qazax Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib. Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb. Sərəncama əsasən, Ayaz Nəriman oğlu Əsgərov Qazax Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad olunub. Prezident Rəcəb Babaşovun Qazax Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında sərəncam imzalayıb.**

## Əfqanıstandakı təyyarə qəzasında ölən pilotların adları açıqlandı



**Hadisə nəticəsində texniklər Andrey Qanja və Rəmzi Əliyev sağ qalıb Azərbaycan Dövlət Mülki Aviasiya Administrasiyası dünən qəzaya uğrayan "Silk Way" şirkətindən icarəyə götürülmüş «An-12» təyyarəsinin ekipaj üzvlərinin adlarını açıqlayıb.**

"Report" quruma istinadən xəbər verir ki, təyyarənin göyərtəsində 9 ekipaj üzvü olub:

1. Şaydanov Rəşid Rəhmanoviç (Özbəkistan vətəndaşı), hava gəmisinin kapitanı, 1953-cü il təvəllüdlü
2. Abdullayev Altay Oqtay oğlu (Azərbaycan vətəndaşı), ikinci pilot, 1971-ci il təvəllüdlü
3. Əsədullayev Nazim Orucəli oğlu (Azərbaycan vətəndaşı), şturman, 1968-ci il təvəllüdlü
4. Rzayev Nadir Adıgözəl oğlu (Azərbaycan vətəndaşı), bortmühəndis, 1964-cü il təvəllüdlü
5. Şahverdiyev Firdovsi Şir oğlu (Azərbaycan vətəndaşı), radio-operator, 1964-cü il təvəllüdlü
6. Zülfiyev Azər Ağakişi oğlu (Azərbaycan vətəndaşı), bort operatoru, 1973-cü il təvəllüdlü
7. Zadnipryanets Ruslan Vladimiroviç (Ukrayna vətəndaşı), texnik, 1969-cu il təvəllüdlü
8. Qanja Andrey Nikolaeviç (Ukrayna vətəndaşı), texnik, 1955-ci il təvəllüdlü
9. Əliyev Rəmzi Mamudoviç (Ukrayna vətəndaşı), texnik, 1963-cü il təvəllüdlü

Qeyd edək ki, dünən Əfqanıstanın "Dvayer" hava limanında yerli vaxtla təxminən saat 14:30-da An-12 təyyarəsinin havaya qalxması zamanı aviasiya hadisəsi baş verib.

Təyyarə Əfqanıstan daxilində yük daşımalarını həyata keçirmək məqsədilə "Silk Way" şirkətindən icarəyə götürülüb. Dvayerə Baqrandan (Əfqanıstan) gələn təyyarə yanacaq doldurulması üçün Marı şəhərinə (Türkmənistan) yola düşüb. Təyyarənin göyərtəsində yük olmayıb.

Əldə olan məlumata görə, hadisə nəticəsində texniklər Qanja Andrey və Əliyev Rəmzi sağ qalıb. Onların vəziyyəti stabil qənaətbəxş olaraq qiymətləndirilir.

Azərbaycan Dövlət Mülki Aviasiya Administrasiyası hadisənin araşdırılması üzrə komissiya yaradıb. Hazırda komissiyanın sədri - Azərbaycan Dövlət Mülki Aviasiya Administrasiyasının şöbə rəisi Muxtar Kərimov və komissiya üzvləri hadisənin araşdırılmasında iştirak etmək üçün Dvayer hava limanına yola düşüblər.

"Silk Way" aviaşirkəti təyyarə qəzasında həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir.

# Kərəm Həsənovun səlahiyyətləri dayandırıldı-fərman

## Prezidentin Əmlak Komitəsi ilə bağlı qərarından: "Bu fərman qüvvəyə mindiyi gündən komitə dövlət əmlakının özəlləşdirilməsi haqqında qərar qəbul edilməsini dayandırsın"

**Prezident İlham Əliyev Dövlət əmlakının özəlləşdirilməsi prosesinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında Fərman verib. Fərmanda qeyd olunur ki, müstəqillik əldə edildikdən sonra dövlət əmlakının özəlləşdirilməsi ölkə iqtisadiyyatının rəqabətli olması ilə yanaşı, geniş sahibkarlıq təbəqəsinin formalaşmasına, habelə iqtisadiyyatda özəl sektorun xüsusi çəkisinin artmasına səbəb olub.**



Hazırda dünyada gedən iqtisadi proseslər ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılmasını, dövlət əmlakının idarə edilməsi sahəsində qarşıda duran yeni vəzifələrin yerinə yetirilməsini və bu sahədə əlavə tədbirlərin görülməsini zəruri edir.

"Yeni iqtisadi reallıqda dövlət əmlakının qorunması və səmərəli idarə olunması məqsədi ilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Müəyyən edilsin ki, dövlət əmlakının özəlləşdirilməsi Azərbaycan Respublikası Prezidentinin qərarları ilə həyata keçirilir.

2. Azərbaycan Respublikası Nazirlər Kabineti:

2.1. "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının yeni qanun layihəsini (özəlləşdirilən dövlət əmlakının qiymətinin həmin əmlakın bazar dəyəri əsasında formalaşdırılması meyarı nəzərə alınmaqla) iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin təklifləri əsasında:

2.2.1. özəlləşdirilməsi nəzərdə tutulan dövlət əmlakının siyahısına dair təkliflərini hər il növbəti büdcə ili üzrə dövlət büdcəsinin layihəsi ilə birlikdə Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2.2. cari ildə özəlləşdirilməsi nəzərdə tutulan dövlət əmlakının siyahısına dair təkliflərini bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi:

3.1. bu fərman qüvvəyə mindiyi gündən "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa və Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqrami"na uyğun olaraq dövlət əmlakının özəlləşdirilməsi haqqında qərar qəbul edilməsini dayandırsın;

3.2. bu fərman qüvvəyə mindiyi günədək "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən özəlləşdirilməsi barədə, müvafiq olaraq, Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən qərar qəbul edilmiş, lakin barəsində özəlləşdirmə əqdi bağlanmamış dövlət əmlakının özəlləşdirilməsi (özəlləşmə prosesində səhmdar cəmiyyətə çevrilmiş müəssisələrin səhmlərinin satışı da daxil olmaqla) istiqamətində tədbirlərin görülməsini dayandırsın və həmin dövlət əmlakının siyahısını 20 gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. bu fərman qüvvəyə mindiyi günədək "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən özəlləşdirilməsi barədə, müvafiq olaraq, Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən qərar qəbul edilmiş və barəsində özəlləşdirmə əqdi bağlanmış dövlət əmlakının özəlləşdirilməsi prosesini ən qısa müddətdə başa çatdırsın və həmin dövlət əmlakının siyahısını 20 gün müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.4. bu fərmandan irəli gələn məsələləri həll etsin.

## Binəli Yıldırım baş nazir yolunda



**Türkiyənin nəqliyyat, dənizçilik və kommunikasiya naziri Binəli Yıldırımın ölkənin baş naziri vəzifəsinə namizəd olduğu rəsmən açıqlanıb. "Report" Türkiyə KİV-inə istinadən xəbər verir ki, bu, hakim Ədalət və İnkişaf Partiyasının (AKP) Mərkəzi İdarə Heyətinin mayın 19-da keçirilən toplantısından sonra elan olunub.**

Məlumata görə, AKP-dən olan deputatlar və nazirlərin çoxu B.Yıldırımın baş nazir postuna namizədliyini dəstəkləyiblər.

Qeyd edək ki, mayın 22-də AKP-nin növbədənkənar qurultayı keçiriləcək. Həmin tədbirdə B.Yıldırımın partiya sədrliyinə və baş nazir vəzifəsinə namizədliyi təsdiqlənəcək.

B.Yıldırım İdarə Heyətinin toplantısından sonra Türkiyənin Diyarbəkir bölgəsinə yola düşüb.

Xatırladaq ki, toplantıda baş nazir vəzifəsindən istefa verən Əhməd Davudoğlu da iştirak edib. O, B.Yıldırıma gələcək fəaliyyətində uğurlar arzulayıb.

YENİ MÜSAVAT
N 109 (6430) 20 noyabr 2016



# Azərbaycan danışıqlardan imtina etsəydi - iddialara cavab

## Şahin Cəfərli: "Danışıqlardan imtina etmək asan məsələ deyil"

**Azərbaycan prezidenti ilə Ermənistan prezidentinin Vyanada bir neçə gün öncə keçirilən Qarabağ danışıqlarının demək olar ki, ciddi bir nəticə əldə etməməsi bir çox insanlarda işğalçı Ermənistanla danışıqların mənasız olduğu rəyini daha da möhkəmlədib. Artıq bəzi tanınmış siyasətçilər belə danışıqların aprelin əvvəlində əldə etdiyimiz hərbi uğurların gətirdiyi üstünlükləri kölgədə qoyduğunu, çoxlu sayda hərbçimizin şəhid olması hesabına əldə edilən uğurların boşa getmə təhlükəsi yaratdığını iddia etməkdədirlər.**

Məsələn, **KXCP sədri Mirmahmud Mirəlioğlu** moderator.az-a açıqlamasında bildirib ki, belə danışıqlarla hərbi uğurlarımızın diplomatik meydanda dəfn edilməsi prosesi gedir. Azərbaycan işğalçılıq mövqeyindən bir addım da olsun geri çəkilməyən Ermənistanla danışıqlara getməklə özünü aldadır. Şəhidlərimizin qanı bahasına əldə edilən üstünlüyümüzü işğalçı və havadarları mənasız danışıqlarla heçə endirmək istəyir. Buna imkan verməmək olmaz.

AXCP sədri Əli Kərimli isə özünün facebook səhifəsində qeyd edib ki, ordumuzun yüksək döyüş əzminin, insanlarımızın qələbəyə ümidlənməsinin nəticəsi atəşkəsi daha heç vaxt pozmayacağımızla bağlı razılıq verməyimizlə bitməli deyildi.

**ADP sədri Sərdar Cəlaloğlu isə bildirdi ki, 4 günlük müharibədən sonra bu tezliklə Azərbaycan-Ermənistan arasında hər hansı görüşün keçirilməsi gözlənilən deyildi. Çünki həm müharibənin yarası təzəydi, həm də Ermənistan rəhbərliyinin verdiyi bəyanatlar birmənalı şəkildə ermənilərin və rusların Dağlıq Qarabağ probleminin dinc və ədalətli yolla həllində maraqlı olmadıqlarından xəbər verirdi. Ona görə belə bir görüşdə iştirak etmək Azərbaycan rəhbərliyi üçün absurd idi:** "Ermənilər ritorikasını dəyişməmiş, beynəlxalq hüquqa hörmətlə yanaşmadıqlarını bir daha nümayiş etdirmiş, Azərbaycan ərazilərinə iddialarından əl çəkməmişdi. Nə qədər ki, bu vəziyyət dəyişilməyib, danışıqlardan nəsə gözləmək də yersizdir. Azərbaycan hakimiyyətinin belə görüşlərdə iştirakı və özünü problemin dinc yolla həllinə çalışan tərəf kimi təqdim etməsi yanlışdır. Görüş də məhz bu səbəbdən nəticəsiz başa çatdı. Düzünü desəm, mənim üçün bu nəticə gözlənilməz deyildi. Düşünürəm ki, görüş əvvəlcədən də elə bu nəticəyə hesablanmışdı.

Mən müharibənin tərəfdarı deyiləm. Amma onu da qəbul etməliyik ki, Dağlıq Qarabağ məsələsi siyasi yolla həll olunmayacaq".

Qeyd edək ki, Vyana danışıqları ATƏT-in Minsk Qrupu həmsədrləri olan ABŞ, Rusiya və Fransanın xarici işlər nazirlərinin təşəbbüsü ilə baş tutmuşdu. O zaman meydana belə bir sual çıxır: Azərbaycan aprel savaşından sonra danışıqlar təşəbbüslərinə yox desəydi, Ermənistanla danışıqlardan imtina etsəydi, nəticə necə olacaqdı?

**Siyasi ekspert Şahin Cəfərli bildirdi ki, nəzəri baxımdan yanaşsaq, danışıqlardan çıxmaq və işğal altındakı əraziləri hərbi yolla azad etmək Azərbaycanın suveren hüququdur, heç kim bizə bu addımı atmağı qadağan etməyib. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Lakin acı reallıqlar da var:** "Sülh prosesindən çıxmaq və masadan qalxmaq çox riskli yoldur və bu addımın nəticələrini qabaqcadan proqnozlaşdırmaq çox çətindir. Müharibə yolunu seçən tərəf, nə qədər haqlı səbəbləri olursa-olsun, ciddi beynəlxalq təzyiqlərə hazır olmalıdır. Xüsusən münaqişənin həllində dominant rola sahib Rusiyanın əlində hər iki tərəfə də təzyiq göstərmək üçün güclü vasitələr var. Moskvanın iradəsi xaricində, onun çağırışlarına məhəl qoymadan hərəkət etmək bir sıra mənfi nəticələrə gətirib çıxara bilər ki, bunları detallaşdırmaq istəməzdim. Bu səbəblə tərəflər Rusiya başda olmaqla, həmsədr ölkələrin mövqeyini nəzərə almağa məcburdur".

**Ş.Cəfərli vurğuladı ki, Vyana görüşü bu həqiqəti bir daha ortaya qoydu ki, münaqişə tərəflərindən heç biri danışıqlardan imtina edib destruktiv mövqe tutan tərəf kimi görünmək istəmir:** "Bilirsiniz ki, Ermənistan bir sıra şərtlər irəli sürərək bu şərtlərin yerinə yetirilməyəcəyi təqdirdə danışıqlara qatılmayacağını bəyan etmişdi. Lakin Ermənistanın şərtlərinin ciddiyə alınmamasına baxmayaraq, Sərkisyan görüşdə iştiraka razılıq verdi. Digər tərəfdən, görüşün mövzusu Azərbaycanı qane etmirdi, çünki söhbət münaqişənin bilavasitə həllinə yönəlmiş təkliflərdən yox, atəşkəs rejiminin möhkəmləndirilməsindən gedirdi. Buna rəğmən, Azərbaycan tərəfi də könülsüz də olsa, görüşdə iştirak etdi. Çünki əvvəla, ölkələrdən heç biri sülh prosesini pozan, destruktiv mövqe tutan tərəf kimi görünmək istəmir. İkincisi, tərəflərə az və ya çox dərəcədə beynəlxalq təzyiq olduğunu da söyləməliyik. Belə bir şəraitdə danışıqlardan imtina etmək asan məsələ deyil. Lakin bir daha təkrarlamaq istərdim ki, danışıqların hazırkı mərhələsi də nəticə verməzsə, beynəlxalq hüquq Azərbaycana öz ərazilərini hərbi yola azad etmək hüququ verir".

❑ **Etibar SEYİDAĞA**

# Amerika Azərbaycanı Xəzərdə gücləndirir

## ABŞ-ın son 10 ildə Azərbaycana 20 milyon dollar hərbi yardım etməsini ekspert necə dəyərləndirir?

**Azərbaycan son on il ərzində ABŞ Müdafiə Nazirliyindən 20 milyon dollar məbləğində hərbi yardım alıb. Bu barədə "Eurasianet" nüfuzlu mətbuat orqanında məqalə dərc olunub. Yazının müəllifi Çoşua Kuçera bildirir ki, Ermənistana bu müddət ərzində demək olar heç nə verilməyib.**



**Kuçera** ABŞ-ın dövlət müəssisələrinin sənədlərini öyrənərək bu nəticəyə gəldiyini bildirir: "ABŞ Dövlət Departamenti iki ölkəyə yardım məsələsində daha çox "paritet" siyasətinə riayət etdiyi halda, Müdafiə Nazirliyi tarazlığı saxlamaq məsələsində daha az həssaslıq göstərib. Bakı əsasən Pentaqonun iki proqramının köməyi ilə mənfəət əldə edə bilib - bunlar "1004 proqramı" və "bölmə 1206" proqramlarıdır. Onlara ABŞ Konqresi tərəfindən daha zəif nəzarət edilir və bu proqramlar cəmiyyət tərəfindən kəskin hesabat tələblərinə məruz qalmırlar".

Kuçeranın sözlərinə görə, Azərbaycan 2005-ci ildən bəri narkotiklərlə mübarizə aparılmasına yardım edən "1004 proqramı"nın maliyyələşdirilməsi üçün 8,5 milyon dollar, "1206 bölməsi" proqramı çərçivəsində terrora qarşı mübarizəyə yardım üçün isə 11,5 milyon dollar vəsait alıb. Maraqlıdır ki, Ermənistan "1004" proqramı çərçivəsində cəmi 41 min dollar alıb. Azərbaycan üçün verilən pulların böyük hissəsi hərbi-dəniz qüvvələrinin dəstəklənməsinə yönəldilib. Bu barədə də məlumat verən müəllif bildirir ki, ABŞ Xəzər dənizinin enerji infrastukturunun müdafiəsində maraqlı tərəfdir.

Azərbaycan-Ermənistan arasındakı son aylarda davam edən gərginlik məqalənin böyük müzakirəsinə səbəb olub. Xüsusilə Azərbaycanla müqayisədə demək olar ki, Ermənistana ABŞ-ın yardım etməməsi ciddi suallar doğurub. Məqalədə bu məsələyə də aydınlıq gətirilərək, ABŞ Dövlət Departamentinin açıqlaması verilib. Rəsmi qurum bildirir ki, ABŞ-ın beynəlxalq terrorizmlə mübarizədə səylərini dəstəkləmək zəruridir və bu, Azərbaycanın sərhədlərinin təhlükəsizliyi üçün vacibdir.

20 milyon yardımın hərbi-dəniz qüvvələrinə ayrılması Azərbaycanda da müxtəlif fikirlərin yaranmasına səbəb olub. Ekspertlər bildirirlər ki, Amerika bu yolla Xəzəri hərbiləşdirmək istəyir. Başqa bir əsas fikirdə ABŞ-Ermənistan münasibətləri ilə bağlıdır. Bundan sonra hər iki ölkə arasındakı əlaqələrin pisləşə biləcəyi ehtimal olunur. ABŞ-ın Ermənistanın havadarı olan Rusiyaya görə təcavüzkar ölkəyə yardımı azaltması ilə də bağlı fikirlər var.

**Politoloq Elxan Şahinoğlu bildirdi ki, ABŞ Azərbaycanın strateji tərəfdaşıdır:** "Amerika Azərbaycanın inkişafında və sabitliyində maraqlıdır. Bu baxımdan Azərbaycana ABŞ kiçik həcmdə hərbi yardımlar ayırıb. Böyük həcmdə yardımlar üçün Konqresin qərarları olmalıdır. Yardımlar Azərbaycanın müdafiə qabiliyyətini gücləndirib, üçüncü dövlətə qarşı ölkəmizi qoymaq üçün edilməyib. Rusiyanın bundan narahatçılıq keçirdiyi istisna olunmur. Söhbət burada müasir texnikadan getmir, kiçik tutumlu katerlərdən gedir. Bunların hamısı əslində müdafiə qabiliyyəti ilə bağlıdır. Hücum hədəfindən söhbət gedə bilməz. Azərbaycan onsuzda Xəzərdə müdafiə ilə bağlı avadanlıqlar istehsal etməyə başlayıb. Əslində 20 milyon kiçik bir rəqəmdir. Ona qalsa, Azərbaycan Rusiyadan 5 milyard dollar, o qədər məbləğdə də İsraildən silahlar alıb. 20 milyon az bir qisimdə hərbi geyimlərin, radarların puludur. ABŞ Azərbaycanın güclü dövlət olmasını, başqa dövlətlərin hədəfinə çevrilməməsini istəyirsə, sərhədlərin möhkəmləndirilməsində maraqlı olmalıdır. Bunun üçün etdiyi yardımı davam etdirməlidir. Söhbət silahlardan yox, texniki avadanlıqlardan gedir".

**Politoloq Amerikanın Ermənistana yardım edə bilməməsinin səbəblərini açıqladı:** "Ermənistan Rusiyanın hərbi vassalıdır. Orada rus hərbi bazaları var. Təsəvvür etmək olmaz ki, rus hərbi bazaları olan bir ölkəyə Amerika yardım etsin. Əsas məsələ odur ki, sərhəddə rus hərbiçiləri var və ABŞ ora hərbi texnikasını yerləşdirə bilmir. Veriləcək hərbi avadanlıqlar rusların əlinə keçə bilər. Digər bir səbəb də ermənilərin dənizə çıxışların olmamasıdır".

**E.Şahinoğlu ABŞ-Ermənistan münasibətlərinə də toxundu:** "Birinci Qarabağ savaşında faktiki informasiya blokadasına alınmışdıq. ABŞ və Amerika dövlətləri Ermənistana inanırdılar. Belə bir şəraitdə Azərbaycana qarşı qətnamədə ədalətsiz 907-ci düzəliş edildi. Amma indi üstündən 22 il keçib. Amerikaya məlumdur ki, Ermənistan Rusiyadan asılı dövlətdir. Hazırda dünyada Rusiyaya qarşı tənqidlər artıb. Buna səbəb də Krım, Cənubi Osetiya və Abxaziyada, son olaraq da, Suriyada gedən proseslərdir. Rusiyaya qarşı tənqidlər artırsa, onun müttəfiqlərinə də bu təsir edir. Azərbaycan bu amildən məharətlə istifadə etməlidir. Göstərilməlidir ki, bizdə sizin rəqibiniz olan Rusiyanın hərbi bazası yoxdur. Amma ABŞ-ın müəyyən ştatlarında ölkəmiz əleyhinə sənədlər hazırlanır. Bunu göz önünə gətirməliyik. Ermənistan isə Rusiyanın vassalı olduğu halda, bəzən onların maraqlarından Amerika istifadə edir. Amerikada ermənilərlə bağlı bəzi düşüncələr artıq var. Amma bəzi ştatlar erməni lobbisinin təsiri altında Azərbaycan əleyhinə qətnamələr qəbul edirlər. Demək, təkcə rəsmi Vaşinqtonla deyil, bu ştatlarla da işləmək lazımdır. Əlimizə düşən amillərdən, xüsusilə Ermənistanda olan rus hərbi bazalarının ölkəmizdə olmamasından məharətlə istifadə etmək lazımdır".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 109 (6430) 20 may 2016

# Ya sülhün önü açılacaq, ya da müharibənin donu!




# Qarabağ danışıqları məxfi fazaya keçir - kritik gəlişmə

## 22 ildə ilk hərbi qələbəni dadan Azərbaycan xalqının əsas gözləntisi prosesin hərəkətverici qüvvəsinə çevrilir; Kreml və İrəvan çıxılmazda; işğalçını müşahidə kameraları yox, işğala son qoyması xilas edə bilər!; Putin Sərkisyanı güzəştə hazırlayır?..

**Prezidentlərin Vyana görüşü ətrafında siyasi və hərbi ekspertlərin səviyyəsində rəy və dəyərləndirmələr davam edir. Lakin görüş bağlı qapılar arxasında keçdiyindən və mətbuata çox xəsis açıqlamalar verildiyindən, təbii ki, hələlik Azərbaycan üçün qəti neqativ və ya pozitiv qiymətdən danışmaq tezdir. Yəqin ki, bir sıra detallara tədricən, önümüzdəki həftələrdə aydınlıq gələcək.**

Bununla belə, bəzi rəsmi və ekspert açıqlamaları diqqət çəkir. Məsələn, ABŞ-ın Ermənistandakı səfiri Riçard Milz bildirib ki, gələn ay - prezidentlərin görüşünün planlaşdırıldığı iyun ayı “problemin hərtərəfli həllinə gətirəcək”. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov da Vyana görüşünü ümidverici adlandırıb.

Öz növbəsində prezident Putinin səlahiyyətli şəxslərindən olan və “ilin sonunadək ən azı 5 rayon qaytarılacaq” kimi sensasiyalı açıqlamanın müəllifi Sergey Markov “hər şeyin Rusiya planı üzrə getdiyini və tezliklə ”Kazan formulu"na çıxmağın mümkünlüyünü" dilə gətirib.

Bəzi ehtimallara görə, yeni situasiyanın ciddiliyini fərq edən Rusiya rəhbərliyi Ermənistanı, Serj Sərkisyanı hansısa güzəştlərə hazırlayır. Prosesin gizli aparılması həm də bu amillə əlaqələndirilir. Prezidentlərin iyuna nəzərdə tutulan növbəti görüşünün moderatorluğunu da böyük ehtimalla, məhz prezident Vladimir Putin edəcək. Qarabağla bağlı bir çox mübhəmlərin həmin görüşdən sonra açılacağı istisna deyil.

***

Yəni bütün mənalarda iyun kritik bir ay, “kartların açılma” ayı ola bilər. Formata gəlincə, mümkündür ki, bu, Rusiya prezidentinin hələ ki inkar edilməyən Bakı və İrəvan səfəri çərçivəsində reallaşsın. Azərbaycan və Ermənistan prezidentlərinin növbəti Moskva *(Soçi, Kazan və s.)* görüşü də təşkil edilə bilər. Bir şeyi dəqiqliklə söyləmək olar ki, olduqca təhlükəli mərhələyə çatan konfliktin həllini dinc məcraya yönəltmək indi müstəsna olaraq Putinin iradəsi, Sərkisyanın seçiminə bağlıdır.

“Vyana görüşündən sonra Ermənistan danışıqlar prosesi çərçivəsində güzəştli variantlarla razılaşmasa, o zaman müharibə variantı yenidən gündəmə gələcək”. Bu barədə **rusiyalı ekspert Dmitri Verxoturov** Vyana görüşünü şərh edərkən deyib (publika.az). Onun sözlərinə görə, Azərbaycan aprel döyüşləri ilə Ermənistana ciddi xəbərdarlıq edib: “Proseslərin gedişi göstərdi ki, Ermənistan Qarabağı əlində saxlaya bilmir, müdafiə gücü zəifdir. Məhz həmin hadisələrdən sonra siyasi manevrlər başladı. Azərbaycan anlayır ki, Ermənistan Rusiyanın müttəfiqidir, ona görə də ehtiyatlı davranır. Lakin əminəm ki, əgər Bakı müharibə variantını seçəcəksə, o zaman bu variantı Moskva ilə razılaşdıracaq”.

**Lakin ekspertin fikrincə, Qarabağ məsələsinin inkişafı qlobal proseslərdən də asılı olacaq.** “Rusiya yaxşı anlayır ki, münaqişənin dondurulması Azərbaycanı bezdirib. Belə vəziyyət rəsmi Bakının alternativ güclərlə anlaşmasına gətirib çıxara bilər. Misal üçün, NATO münaqişənin həllində rol alaraq, regionda güclənə bilər. Belə halda Rusiyanın bütün cənub cinahı kəskin zəifləyir, Qərbin Xəzərə və Türkmənistana girmək imkanı güclənir. Yəni Rusiyanın strateji vəziyyəti pisləşir. Buna görə də Rusiya Qarabağ məsələsində Azərbaycan və NATO-nun yaxınlaşmasına imkan verməmək niyyətindədir”, - deyə politoloq vurğulayıb.

**Rusiyalı politoloq hesab edir ki, Rusiya NATO-Azərbaycan yaxınlaşmasının qarşısını almaq üçün də Ermənistanı bütün əraziləri - Qarabağ və ətraf rayonları boşaltmağa məcbur edə bilər:** “Fikrimcə, proseslərin nəticəsi gözlənilməz olacaq. Ermənistanı Qarabağı tamamilə Azərbaycana qaytaracaq və Rusiyanın ciddi təzyiqinə məruz qalacaq. Belə olan halda Ermənistanda çevriliş ola bilər. Lakin indiki şərait də Ermənistan prezidenti üçün əlverişsizdir. Çünki Sərkisyan I Qarabağ müharibəsinin iştirakçılarındandır. Aprel müharibəsindəki məğlubiyyət onun üçün sillə oluğ olub. Azərbaycan cəmiyyətində artıq davamlı bir gözlənti var ki, ya bu hərbi qələbə sülh danışıqlarının nəticələrində tezliklə və obyektiv şəkildə maddiləşəcək, ya da qələbə savaşının davamı gəlməlidir.

Maraqlıdır ki, Azərbaycan xalqının bu ovqatını təkcə həmsədr dövlətlər və işğalçı Ermənistan deyil, rəsmi Bakı da ciddiyə almaq zorundadır. Ən maraqlısı odur ki, Azərbaycan iqtidarı danışıqlarda hətta taktiki gediş naminə yumşaq mövqe tutsa belə, cəmiyyətimiz Qarabağ mövzusunda sərt və işğalçıya qarşı barışmaz mövqeyini saxlayır.

Yaxın həftələrdə, daha doğrusu, kritik sayılan iyun ayında bu ovqatın nizamlama prosesinə nə dərəcədə stimulverici təsir göstərdiyinin, hərəkətverici qüvvə olub-olmadığının ümumiyyətlə, ciddiyə alınıb-alınmadığının şahidi olacağıq. Məhz o zaman sülh danışıqlarında qapalı fazanın bitdiyini söyləmək olacaq: ya sülhün önü açılacaq, ya da müharibənin donu!

***

Yeri gəlmişkən, bu və başqa səbəbdən ATƏT-in şəxsi nümayəndəsi Anji Kasprşikin təmas xəttindəki müşahidə qrupunun səlahiyyətlərinin genişləndirilməsi haqda razılıq Azərbaycan cəmiyyətində heç də pozitiv duyğu yaratmayıb - elə bir ara erməniпərəst kimi adı hallanan Kasprşikin özü kimi.

du və onun hakimiyyəti nüfuzdan düşdü. Bu baxımdan, Qarabağda yeni müharibəni başlatmaqla o öz nüfuzunu bərpa etmək istəyə bilər. Lakin digər versiyaya görə, o, Rusiyadan çəkinərək, buna getməyəcək”.

Beləliklə, bir daha işğalçının “ipinin” müstəsna olaraq Moskvanın əlində olduğu üzə çıxır. Deməli, həmişəki kimi “izlər” Kremlə aparır...

***

Yeni dönəmin bir mühüm və həssas, daha dəqiqi, aparıcı özəlliyi də nəzərdən qaçırıla bilməz və bu da sözsüz ki, şəraitin diktəsinin doğurduğu reallıqdır. Məsələ ondadır ki, Azərbaycan xalqı 22 illik fasilədən sonra, 4 günlük aprel müharibəsində işğalçı üzərində hərbi qələbəni əməllicə “dadıb”, düşmənin məğlubedilməz mifi darmadağın olub.

Çünki cəmiyyətimizdə ənənəvi olaraq əndişə var ki, bu kimi atəşkəsi gücləndirmə mexanizmləri ən əvvəl işğalçını və işğalçı rejimi Azərbaycan ordusundan qorumağa yönəlib.

Ancaq artıq hərbi ekspertlər təmas xətindəki yeni müşahidə kameralarının situasiyanı kökündən dəyişə bilməyəcəyinə, bunun texniki cəhətdən mümkünsüz olduğuna diqqət çəkiblər. Onların qənaətincə, pilotsuz uçan zərbə dronları, zirehli texnikanı və başqa hərbi əməliyyatları heç bir müşahidə kamerası fiksə edə bilməz.

Ən önəmlisi, bütün analitiklər dönə-dönə vurğulayırlar ki, işğal altındakı ərazilərin heç olmasa, bir qismi azad edilməyincə, atəşkəs daima kövrək olaraq qalacaq. Yəni işğalçını müşahidə kameraları yox, işğala son qoyması xilas edə bilər!..

***

Əlbəttə ki, 24 ildir torpaqlarının 20 faizi işğalda qalan bir xalqın konfliktə, işğal qala-qala quraşdıralacaq müşahidə kameralarına sərt münasibəti təbiidir. Hansı xalq uzun müddət belə durumla barışar ki? Bu üzdən Azərbaycan xalqının işğalçıya, onun gizli-açıq havadarlarına möhləti əslində olduqca qiymətli xoş məram jesti, fəqət, axırıncı fürsətidir ki, nəhayət, üzlərini əlahəzrət ədalət tərəfə tutsunlar. Dağlıq Qarabağı, ətraf rayonları qaytarıb, Azərbaycanı qazansınlar.

Azərbaycanı itirməyin altını çəkməyin necə ağır olduğu xüsusən də Ermənistan timsalında çoxdan ortada. Bölgənin, bölgədə maraqları olan dövlətlərin itirdikləri də eləcə. Əksini yoxlamağın zamanı çatmadımı? Ümid edək ki, iyun ayında intensivləşməsi gözlənilən danışıqlar əsas suala, nəhayət, pozitiv planda aydınlıq gətirəcək. Ya ədalətli sülhə aparan yol açılacaq, ya da...

**Ya da haqq savaşının davamı qaçılmaz olacaq!**

**❑ Analitik xidmət**



## Azərbaycan Türkiyə və Səudiyyə Ərəbistanı ilə birgə təlimlərdə

**Azərbaycan hərbçiləri Türkiyədə keçirilən “Efes-2016" beynəlxalq təlimində iştirak edirlər.**

Virtualaz.org Müdafiə Nazirliyinin saytına istinadən bildirir ki, mayın 15-dən iyunun 1-dək davam edəcək və İzmirdə keçirilən tədbirdə Silahlı Qüvvələrimizin nümayəndələri də iştirak edirlər.

Qeyd edək ki, tədbirə həmçinin ABŞ, Almaniya, Qətər hərbçiləri də qatılıblar.

Səudiyyə ordusunun polkovniki Əli Məhəmməd əl-Şəhrinin sözlərinə görə, təlimin məqsədi beynəlxalq təhlükəsizlik və sabitliyin, iştirakçı ölkələrin həmrəyliyinin, terror qruplaşmalarına qarşı mübarizəyə hazırlığının gücləndirilməsidir.



## Ermənilərin dinc əhalini atəşə tutması NATO PA-nın sessiyasında

**“Bu ayın 27-dən 31-nə qədər Albaniyanın paytaxtı Tirana şəhərində NATO Parlament Assambleyasının növbəti sessiyası keçiriləcək”.**

Bunu "Trend"ə Milli Məclisin deputatı, Azərbaycanın NATO PA-dakı nümayəndə heyətinin üzvü Siyavuş Novruzov deyib.

S.Novruzov bildirib ki, Azərbaycan nümayəndə heyəti sessiyanın işində fəal iştirak edəcək və son dövrdə cəbhə xəttində baş verən hadisələri tədbir iştirakçılarının diqqətinə çatdıracaq: “Təbii ki, son hadisələrlə bağlı, o cümlədən ermənilərin atəşkəsi intensiv pozması, dinc əhaliyə qarşı silahdan istifadə etməsi, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqları pozub status-kvonu saxlamağa cəhd etməsi, Azərbaycanın qaçqın və məcburi köçkün məsələsindən əziyyət çəkməsi və digər məsələlər qaldırılacaq”.

YENİ MÜSAVAT
N 109 (6430) 20 may 2016









# Ermənilərin hədəfə aldığı Mingəçevirdən reportaj

## "Yeni Müsavat" ölkənin ən böyük su elektrik stansiyasından sızmanın olması haqda deyilənlərə aydınlıq gətirib

**Bir neçə gün öncə Mingəçevir Su Elektrik Stansiyasında (SES) sızmanın olduğu haqda mətbuatda xəbərlər yayıldı. Guya torpaq dambalarında su sızmaları müşahidə olunub. Deyilənə görə, orada suyun artması müşahidə olunsa, müəyyən suallar çıxa bilər.**

"Yeni Müsavat"ın reportyor qrupu bu xəbərin ardınca Mingəçevirə yollanıb və SES-də sızma ilə bağlı araşdırma aparıb. Əməkdaşlarımızı SES-in ərazisinə daxil olmaq və son vəziyyətlə tanış etmək üçün şəhər rəhbərliyinin rəsmisi müşayiət edib.

Mingəçevir SES-lə bağlı şəhər icra hakimiyyətinin nümayəndəsi bildirib ki, bu xəbər yanlış anlaşılıb. Bələdçimizin sözlərinə görə, SES-də genişmiqyaslı sızmadan söhbət getmir. Sadəcə, dağlıq ərazidəki dambalarda müəyyən sızmalar yaranıb. Həmin sızmaların genişlənməsi ehtimalı yoxdur. Çünki su anbarında gündəlik monitorinqlər aparılır, hər hansı bir xırda sızma müəyyən olunduğu halda qarşısının alınması üçün müvafiq tədbirlər görülür.

**RİH rəsmisi vurğulayıb ki, sonuncu dəfə belə sızma 3 il əvvəl baş verib və qarşısı alınıb.** "Su anbarında xüsusi drenaj sistemi anbardakı suyun səviyyəsini daim nəzarətdə saxlamağa imkan verir. 3 il əvvəlki sızma 1 kilometr eni olan bəndin altında deyil, anbarın əhatə olunduğu dağ silsiləsinin alt hissəsində olub. Həmin sızmanın qarşısı uğurla alınıb. Bu gün su anbarından hər hansı bir sızma yoxdur" - RİH rəsmisi belə deyib. Əlavə edib ki, media sızma barədə deyilənləri panika şəklində çatdırıb ki, bu da narahatlıq doğurub: "Əslində, bu xəbər düzgün təqdim olunmayıb. Ona görə medianın xəbərlərindən agah olan Mingəçevir sakinləri də narahatlıq keçirib. Ancaq onlara izah eləmişik ki, qəti narahatlığa əsas yoxdur. Bu gün Mingəçevir SES ən yüksək səviyyədə mühafizə olunur və tam nəzarətdədir".

**Bələdçimiz onu da əlavə edib ki, Ermənistan hərbi-siyasi rəhbərliyinin Mingəçevir SES-i vuracağı ilə bağlı vaxtaşırı verdiyi bəyanatları da cəfəngdir:** "Buradakı dəryaçanın uzunluğu 70 km, eni bəzi yerlərdə 13, bəzilərində isə 18 kilometrdir. Dəryaça dağ silsiləsi ilə əhatə olunub. Stansiyaya tərəf olan hissəsində qurulan bəndin eni 1 kilometrdir. Bu halda SES-in hədəfə alınması mümkün deyil. Heç kim narahat olmasın, burdan bir quş belə nəzarətsiz uça bilməz".

Stansiyanın tikintisinə 1945-ci ildə başlanıb, 1953-cü ildə ilk hidroaqreqat qurulub və 1 il sonra stansiya tam gücü ilə işə salınıb. Ümumilikdə isə bu stansiyanın tikilməsində 20 min insan iştirak edib. 1940-cı illərin sonlarına doğru 10 minə yaxın alman hərbi əsiri bu stansiyanın quraşdırılmasına cəlb edilib. 6 hidroaqreqata malik olan Mingəçevir SES-in gücü 359 Mvt, orta illik elektrik enerjisi istehsalı 1,4 milyard kvt/saat-dır.





**"Mingəçevir dəryaçasının uzunluğu 70 km, eni 18 kilometrdir. Dəryaça dağ silsiləsi ilə əhatə olunub. Stansiyaya tərəf olan hissəsində qurulan bəndin eni 1 kilometrdir. Bu halda SES-in hədəfə alınması mümkün deyil. Heç kim narahat olmasın, burdan bir quş belə nəzarətsiz uça bilməz"**





Qovşağın ən əsas orijinal hissəsi yüksək təzyiqli torpaq bəndi Avropada yuyulma üsulu ilə tikilmiş ən nəhəng (hündürlüyü 80 m) bənddir. O, işlənən materialların həcminə görə, həm də dünyada çınqıl-qumdan tökülmüş yeganə bənddir.

***

Mingəçevirdə olarkən SES-dan ayrılıb şəhər istiqamətinə yollandıq və şəhər icra hakimiyyətinin hansı işlər görməsini araşdırdıq. Amma ondan qabaq xüsusi qeyd etməliyik ki, şəhərin böyük turizm potensialı var. Mingəçevirə təşrif buyuranlar ilk baxışda şəhərdən Tiflisin təəssüratını ala bilər.

Şəhərdə sakitlik, yaşıllıq var, Kür çayı Mingəçevirin tən ortasından keçir. Şəhəri iki hissəyə ayıran Kür qırağında hotellər, restoranlar, parklar salınıb, çay üzərində kanat quraşdırılıb. Amma bu cür imkanlara rəğmən Mingəçevirdə turist gözə dəymir. Yerli sakinlər bunu hotellərin bahalığı ilə izah edirlər. Deyirlər ki, 1 nəfər üçün günlük qiymət 70 manatdan başlayır. Bu da turistlərin Mingəçevirdə olub, şəhərin özəllikləri ilə tanış olmasının qarşısını alır. Bu gün Mingəçevirdə 4-5 ulduzlu 3 hotel var - "River side", "Ağsaray" və "Kür".





Fəqət gecəsi 7-80 manatdan başlayan hotel qiymətləri dodaq uçuqladır və dərhal vətəndaşı itələyir. Halbuki turizmin inkişafı üçün münasib tariflər təyin etmək olar. Onu da deyək ki, Kürdə turistləri gəzintiyə çıxaran gəmilər, qayıqlar fəaliyyətdədir.

Adambaşı 50 qəpiyə Kürü gəmidə gəzmək olar. Sahil parkı isə özəlliklə yaraşıq verir. Amma Tiflis, Batumi, Trabzon və başqa şəhərlərdən heç də geri qalmayan Mingəçevirə turist axını müşahidə olunmur. Turizm isə hotel-restoran-taksi şəbəkəsinin işləməsi, şəhərin qaynaması, tanınması deməkdir. Hər halda, baha qiymətə boş qalan hotel otaqlarındansa, onları münasib məbləğə təklif etmək daha məntiqli olardı. Üstəlik, bundan 110 minlik şəhər əhalisi də qazana bilər...

***

Şəhəri dolaşarkən Mingəçevir İH rəsmisi məlumat verdi ki, ötən üç ayda 20 Yanvar 17 və Cəmil Əliyev 38/3 ünvanlarında yerləşən çoxmənzilli yaşayış binalarının dam örtükləri təmir olunub. Heydər Əliyev prospektində yerləşən 7 çoxmənzilli yaşayış binasının 42 girişlərində təmir-bərpa işlərinə başlanıb.

Şəhərin Nərimanov küçəsində Teatr meydanından 20 Yanvar küçəsinədək səkilərə hər iki tərəfə dekorativ daş döşənir. Aydın Məmmədov, Xətai və Nəsimi küçələrində küçə işıqlanması yenidən qurulur. Aydın Məmmədov və 20 Yanvar küçələrində yol bordyorları yenilənir və səkilərə yeni asfalt örtük salınır. 3 ayda şəhərdə 738 daimi iş yeri yaradılıb.

Məşğulluq Mərkəzinə 3 min 597 nəfər şəhər sakini iş üçün müraciət etmiş, onlardan 552 nəfəri peşəsinə və ixtisasına uyğun işlə təmin olunub. 196 nəfər münasib işlə təmin olunmadığı üçün onlara işsizlik statusu təyin edilib və müavinət verilib.

İstilik Sistemlərinin İstismar Sahəsi tərəfindən 6 qazanxana vasitəsilə təhsil, səhiyyə və digər sosial obyektlərə və yaşayış binalarına qrafikə uyğun istilik enerjisi verilib. Məcburi köçkün şəhərciyində 1098 mənzilin və digər sosial obyektlərin istiliklə və isti su ilə təchizatı təmin edilib. Şəhərdə 1300 ədədə yaxın ağac əkilib və C.Əliyev küçəsi 13 saylı binanın arxasında yeni parkın salınması işlərinə başlanıb.

Son 4 ildə Mingəçevirdə küçələr genişləndirilib, asfaltlanıb, işıqlanma dirəkləri quraşdırılıb, səkilər yenilənib, yaşıllıqlar salınıb, "Sahil", "Dostluq", "Heydər Əliyev", "Füzuli" parkları yenidən əsaslı şəkildə qurulub, müxtəlif ağaclar və bəzək kolları ilə bəzədilib, müasir uşaq əyləncə avadanlıqları ilə təchiz edilib.

Bələdçimiz bildirdi ki, 5442 məcburi köçkün ailəsi, 20 min 411 nəfər qaçqın məskunlaşıb. Onların sosial-məişət problemlərinin həlli istiqamətində şəhər rəhbərliyi tikililərin dam örtüklərinin təmirində, su ilə təchizatında, kanalizasiya xətlərinin təmirində yaranmış problemlərin həllində imkan daxilində köməkliklər göstərir.

Məcburi köçkün rayonların Mingəçevir şəhərindəki səlahiyyətli nümayəndələri ilə mütəmadi olaraq görüşlər keçirilir, onlarla birgə məcburi köçkünlərin sosial məişət problemlərinin həlli yolları müzakirə edilir və müvafiq tədbirlər görülür.

İcra hakimiyyəti rəsmisi deyir ki, prezident sərəncamı ilə Mingəçevirdə "Toxuculuq kombinatı" ASC-nin ərazisində yeni 5 sənaye parkının salınması haqda qərar verilib. Həmin ərazi sökülüb və yerində ilkin olaraq Trikotaj fabrikinin əsasının qoyulması üçün işlər aparılır.

❑ **"Yeni Müsavat"ın reportyor qrupu**

# "Azərbaycan işğalçıya və vasitəçilərə konkret vaxt verməlidir"

**Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin sədri Eldar Namazov Qarabağ cəbhəsində aprelin əvvəlindəki dörd günlük müharibədən sonra Azərbaycan və Ermənistan prezidentlərinin Vyanada apardıqları danışıqlardan sonra yaranmış durumu "Yeni Müsavat"a şərh edib.**

## Eldar Namazov Vyana görüşündən sonrakı durumu və müharibə perspektivini şərh edir



Eldar Namazov

E.Namazovun sözlərinə görə, Vyana görüşü vacib hadisə olub və o, bu danışıqlar barədə həm mediadan, həm də özünün başqa imkanlarından istifadə edərək beynəlxalq kanallar vasitəsilə də informasiya əldə edib: "Təbii ki, görüşə xüsusi rəng verən onun 4 günlük müharibədən sonra ilk görüş olması idi. 4 günlük müharibə diplomatik görüşlərə, beynəlxalq müşahidəçilərin mövqeyinə çox ciddi təsir göstərməli idi. Vyana görüşündən bir müddət əvvəl mən mətbuata açıqlamalarımda xüsusi qeyd edirdim ki, indi mümkün ssenarilərdən biri paket həll variantı, biri mərhələli həll, biri vəziyyətin dondurulması, biri isə müharibənin başlanmasıdır. Bu dörd variantdan reallıqda yalnız ikisi-mərhələli həll və müharibə variantı uzlaşır. Ya mərhələli planla sülh prosesi getməlidir, ya da genişmiqyaslı müharibə olmalıdır və problemi Azərbaycan ordusu həll etməlidir. Bu iki yol içərisində beynəlxalq vasitəçilər mərhələli həll planına üstünlük verərlər, nəinki müharibənin yenidən başlanmasına. Vyana görüşündə ən müsbət hal orada qəbul olunmuş həmsədrlərin bəyanatı yox, danışıqlardan sonra Rusiyanın xarici işlər naziri Sergey Lavrovun mətbuat qarşısına çıxıb "yəqin prosesi mərhələli plan üzrə aparmalıyıq" deməsi oldu. Bu etiraf çox vacib idi. Ona görə ki, aprel döyüşlərinə qədər erməni tərəfi, ümumiyyətlə, mərhələli plan sözünü qəbul etmirdi. Nə vasitəçilər bu haqda danışırdı, nə də erməni tərəfi bunu qəbul edirdi. İndi isə Ermənistanın faktiki olaraq arxasında duran, ona himayədarlıq eləyən Rusiya öz xarici işlər nazirinin dili ilə deyir ki, son hadisələr göstərdi ki, mərhələli həll planı üzrə irəliləmək lazımdır".

**E.Namazova görə, erməni tərəfi çalışır ki, həmin görüşdə cəbhə bölgəsində monitorinqin gücləndirməsi, ATƏT-in monitorinq missiyasının müasir çəkiliş avadanlıqları ilə təchiz olunması barədə qərar qəbuluna nail olsun:** "Prosesin içində olan insanlar gözəl başa düşürlər ki, 22 ildir işğal olunmuş ərazilərdən çıxmayan bir dövlət bu yolla işğalı əbədiləşdirmək istəyir. Ona görə də hər bir monitorinqin gücləndirilməsi, hansısa insidentlərin araşdırılması kimi məsələlər danışıqlarda qaldırılanda Azərbaycan tərəfi xüsusi qeyd eləməlidir ki, bunlar hamısı o şərtlə mümkündür ki, sülh prosesi ilə sinxron həyata keçirilsin. Yəni sülh prosesi olacaqsa, atəşkəs də olmalıdır, monitorinq də keçirilməlidir, atəşkəs pozuntularını da araşdırmaq, pozuntuya yol verən tərəfi cəzalandırmaq da lazımdır. Əgər sülh prosesi olmayacaqsa, işğalçı tərəf Azərbaycan ərazilərindən çəkilməyəcəksə, insidentlər də artacaq, müharibə də qaçılmaz olacaq. Azərbaycan bəyan eləməlidir ki, real sülh prosesi olmadan atəşkəsə riayət eləmək mümkün deyil. Ona görə ki, məqsədimiz işğal olunmuş torpaqları azad etməkdir. Bu, sülh yolu ilə olsa, daha yaxşıdır. Ancaq Azərbaycan ordusunun apreldə keçirdiyi uğurlu əməliyyatlardan sonra dünya ictimaiyyəti başa düşür ki, əmr olsa, siyasi qərar verilsə, hərbi əməliyyatlarla torpaqlarımızı azad etməyə qadirik".

**"Danışıqlar prosesi əvvəlki kimi, heç bir nəticə verməndən illər uzunu davam edə bilərmi, bunun olmaması üçün Azərbaycan bəri başdan nə etməlidir" sualına E.Namazovun cavabı belə olub:** "Prosesin əvvəlki kimi illərlə uzanması təhlükəsi var. Ermənistan və bəzi vasitəçilər məhz buna nail olmağa çalışır. Ancaq bir məqama diqqət yetirin. 4 günlük müharibə regionda güclərin balansının dəyişdiyini göstərib. Bu, bir-iki il ərzində baş verməyib. Bu, uzun illər davam edən prosesin nəticəsidir. Elə bir silah növü, elə bir qoşun növü yoxdur ki, Azərbaycan ordusu həm keyfiyyət, həm kəmiyyət baxımından Ermənistan ordusundan üstün olmasın. Hətta rus hərbi ekspertləri bunu açıq bəyan ediblər. Bu vəziyyəti dəyişmək üçün Ermənistan 10 il ərzində əhalisinin sayını 10 dəfə artırmalıdır, iqtisadiyyatını 10 dəfə gücləndirməlidir, ordusunun imkanlarını 10 dəfə artırmalıdır. Bunları Ermənistanın edə bilməsi mümkün deyil. Azərbaycan bu üstünlüyündən istifadə edib danışıqlarda diktə mövqeyində olmalıdır. Danışıqlarda konkret şərt qoymalıdır ki, bu ilin sonuna qədər ciddi irəliləyiş olmayacaqsa, mərhələli planla sülh prosesi başlanmayacaqsa, torpaqların azad olunmasına başlanmayacaqsa, Azərbaycan ordusunun genişmiqyaslı əməliyyatlara başlaması aktuallaşacaq".

❑ **Etibar SEYİDAĞA**

# Əli İnsanov amnistiyaya düşə bilər

## Səbəblərə aydınlıq gətirən hüquqşünas "İlqar Məmmədov isə yüz faiz kənarda qalacaq" dedi...

**Mayın 20-də Milli Məclisin müzakirəsinə çıxarılacaq Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın amnistiya təşəbbüsünün qəbul olunacağına inam böyükdür. Bunun fonunda həbsdəki siyasi məhbuslardan cəzaları amnistiya aktı ilə üst-üstə düşənlərin kimliyi maraq doğurur.**



Əli İnsanov

Ən çox müzakirə obyektinə çevrilən şəxslər sabiq səhiyyə naziri Əli İnsanov və REAL sədri İlqar Məmmədovdur. Bu siyasilərin amnistiya öncəsi ən çox gündəmə gəlmələrinə səbəb keçmiş nazirə verilən 11 illik həbs cəzasının artıq 5 ayının qalması və REAL sədri ilə bağlı gedən proseslər, Avropadan onun azadlığı ilə bağlı Azərbaycana edilən təzyiqlərdir. Hər iki şəxsin amnistiyaya düşüb-düşməyəcəkləri ilə bağlı da müəmmalar da var.

**Tanınmış hüquqşünas Müzəffər Baxış yaranan müəmmalarla bağlı tərəddüdlü danışdı:** "Mətbuatda amnistiyanın kimlərə tətbiq olunacağı ilə bağlı gedən məlumatı oxudum. Məlumatdan bu qənaətə gəlmək olar ki, Əli İnsanova bu qərar şamil oluna bilər. Amma məlumatın içərisində mötərizədə amnistiyaya tətbiq olunan məhdudiyyətlərdən söhbət gedir. Bu məhdudiyyəti biz bilmirik. Çünki mətbuatda gedən xəbərdə bəzi səhvlər, yaxud getməyən hissələr də ola bilər. Qeyd olunur ki, cəzasının 6 ayı qalan məhbuslara tətbiq olunacaq. Amnistiyada ərizə vermək də var. İnsanovun bu ərizəni verib-verməyəcəyini bilmirəm. Layihə ilə yaxından tanış deyiləm. Amnistiya elə bir aktdır ki, bir bənd digərinə uyğun gəlməyə bilər. İyunun 15-də qərarın qüvvəyə minəcəyi deyilir. Son illərdə Mehriban xanımın irəli sürdüyü amnistiya təşəbbüsləri barələrində məhkəmə hökmü qüvvəyə minən şəxslərə şamil olunur. Tam layihəni oxumadan şərh vermək çox çətindir. Əvvəlki amnistiyada cəzanın qalan hissəsi bir il nəzərdə tutulurdusa, indi bu, 6 aya endirilib. Əgər Əli İnsanovun cəzası 5 ay qalırsa, o, amnistiyanın təsiri altına düşür. Əgər orada törətdiyi cinayət əməlinin ağırlığından asılı olmayaraq, 6 ay həbs cəzası qalan şəxslərə şamil olunma varsa, o zaman İnsanov düşəcək. Amnistiyada məhdudiyyətlərdən biri odur ki, böyük cinayət törətməyən şəxslərə şamil olunur".

**Hüquqşünas REAL sədrinin amnistiyaya birmənalı şəkildə düşməyəcəyini qeyd etdi:** "İlqar müəllim ağır cinayətə görə ittiham olunub. Amnistiya ağır cinayətlərdə ittiham olunan şəxslərə tətbiq edilmir. Böyük cinayət əməli olmayan şəxslər bu qərarla azad olunurlar".

❑ **Cavanşir ABBASLI**

# "Sənin də "stop"un var?"



**Samir SARI**

**Keçmiş siyasi məhbus Tofiq Yaqublunun ölkəmizin qərb sərhədində saxlanılması və ölkədən xaricə buraxılmaması barədə xəbər yadıma Hüseyn Arabulu saldı.**

İndiki gənclər bəlkə də Hüseyn Arabulu tanımırlar, amma o kişi vaxtilə ölkəmizdə çox məşhur idi. Adam bir zamanlar ölkəmizin işıq təchizatına baxan şirkətin sahibi idi. Allah tərəfi, həm özü yaxşı kişiydi, həm də yaxşı işləyirdi, ona qədər, demək olar ki, camaat gecənin yarısını qaranlıqda qalırdı.

Amma sonradan iş elə gətirdi ki, Arabulu ölkədən qovmaq, onun rəhbərlik etdiyi sahəni inhisara götürmək vacib oldu. Di gəl, bu nurnai kişinin içində elə bir höcətlik, inadkarlıq baş qaldırdı ki, problem əmələ gəldi. Hüseyn əfəndi dirəşmişdi ki, şirkətimi dolandırıcılara qapdırmam.

A kişi, etmə, eləmə, burası 39-42-ci paraleldir, beynəlxalq arbitraj məhkəməsi-filan nədir, daşı tök ətəyindən, şirkəti təhvil ver.

Kimə deyirsən, sayın Arabul deyirdi, qırxdır, bir əskik deyil, verməm.

Belə olanda atlar daşlığa, qanqallığa süründü. Hökumətimizin də üzü çöndü, dünən ölkədən qovmaq istədiyi adamın ölkədən çıxışına "stop" qoydu. Çünki Arabul ölkədən çıxa bilsəydi, gedib beynəlxalq məhkəmələrə işverənlik edəcəkdi.

Bu da yaşlı adam, arvad-uşaq 2 min kilometr o tərəfdə, baxanı yox, üstəlik, artıq pul-para da qazana bilmir, neyləsin?

Ona görə də cənab Arabul bir gün qafaya qoymuşdu ki, bizim bu qonaqpərvər ölkəmizi qeyri-leqal şəkildə, gizlicə tərk eləsin. Bu ideya onun öz ağlına gəlmişdi, yoxsa ona kimsə belə bir tövsiyə vermişdi, bu gün də aydın deyil, tərəfimizdən araşdırılıb ortaya çıxarılmayıb. Amma bir zamanlar ölkəmizə gələndə gül-çiçəklə qarşılanan və bizi gerçəkdən də işıqlı günlərə çıxaran Hüseyn Arabulu Qazax tərəflərdə sərhədin yaxınlığında çayda, özü də balıqçı qiyafəsində tutmuşdular.

O vaxt sərhədçilərimiz çox ayıq-sayıq idi, sərhəddən quş uçurtmur, balıq üzdürmürdülər (hərçənd sonradan 3 tona yaxın maye heroin keçirənləri üzrlü səbəbdən görməmişdilər, yuxulu vaxtlarına düşmüşdü). Onlar cənab Arabulu çaydan tutub gətirmişdilər, adını potensial sərhəd pozucusu qoymuşdular, hökumət adamları da xəbəri mediaya servis eləmişdilər. Bu hərəkətə görə Arabula cəza verilmədi. Əslində onu naqillərlə çaya elektrik cərəyanı buraxıb balıq tutmaq üstündə, brakonyer kimi cərimələyə də bilərdilər. Amma hökumətimiz bunu etmədi.

Beləcə, köhnə elektrikçini, yeni balıqçını paytaxta qayıtmağa məcbur elədilər. Üstündən bir müddət keçəndən sonra necə oldusa, nə baş verdisə, Hüseyn müəllimin "stop"unu götürdülər, o da vardı getdi məmləkətinə. Belə görünürdü ki, əfəndidən paytaxtın elektrik təminatına baxan idarənin halallığını da alıblar.

Yəni belədir, bu ölkəyə daxil olmaq asan iş olmadığı kimi, bu ölkədən çıxmaq da asan iş deyil.

Neçə vaxtdır, ölkədə bir acı "stop" rüzgarı əsir. Tez-tez sosial şəbəkədə virtual və real dostlar belə şeylər yazırlar: "Bu gün Avropaya uçmalıydım, aeroportdan buraxmadılar. Dedilər, adımın qarşısında "stop" var"; "Bilmirəm, günahım nədir, nəyə görə məni bu gün Türkiyəyə getməyə qoymadılar"; "Xəbərim olmayıb, heç demə, mənim ölkədən çıxmağım yasaqmış"; "Adımın qarşısındakı "stop"u götürtdürə bilsəydim, Avropadan gələn dəvətləri dəyərləndirərdim"; "Xəstəyəm, xaricdə müalicəyə ehtiyacım var, amma məni xaricə buraxmırlar" və sair və ilaxır.

Xüləs, ölkədə xeyli ictimai-siyasi fəal var ki, hökumət onları Arabulun gününə salıb, az qalırlar Bakının sabiq və rəhmətlik rəhbəri Rəfael Allahverdiyev kimi gedib Balakən tərəfdə Alazan çayını qayıqla üzüb xaricə keçsinlər. Sadəcə, bu işi düzüb-qoşa bilən adamları tanımırlar.

Bundan başqa, bir xeyli ictimai-siyasi fəal da var ki, ölkədən çıxışları qadağan deyil, adlarının qarşısında "stop"-filan yoxdur, amma hər dəfə aeroportda pasport nəzarətindən keçəndə onları tər basır, qorxurlar ki, məmur indicə deyəcək: "Sizin "stop"unuz var, ölkədən çıxa bilməzsiniz".

Özü də bir var, bunu adama aeroportda deyələr, bahalı təyyarə biletin əlində qala, yana, bir də var, ölkədən avtpbusla, qatarla çıxarkən deyələr, sən də deyəsən ki, biletpulu cəhənnəmə olsun.

Bu baxımdan Tofiq Yaqublu yaxşı qurtarıb, o, Osloya (Parisə, Londona) uçarkən "stop" eşitsəydi, pərtlik daha böyük olardı.

YENİ MÜSAVAT
N 109 (6430) 20 may 2016




# Gözlər ABŞ-da: iyunda dolların faizi artırıla bilər

**ABŞ-ın Federal Ehtiyat Sisteminin (FES) Açıq Bazar üzrə Federal Komitəsinin aprelin 26-27-də keçirilən iclasının protokolları açıqlanıb.**

"APA-Economics" "İnterfax" agentliyinə istinadən xəbər verir ki, FES-in rəhbərliyində təmsil olunan şəxslərin əksəriyyəti statistik göstəricilərin ABŞ-da makroiqtisadi vəziyyətin yaxşılaşmasını əks etdirəcəyi təqdirdə iyunda keçiriləcək iclasda faiz dərəcələrini artırmağa hazır olduqlarını bəyan ediblər.

"Komitəsinin üzvlərinin əksəriyyəti bildiriblər ki, statistik məlumatlar II rübdə iqtisadi artımın sürətlənəcəyini, əmək bazarında vəziyyətin yaxşılaşacağını və inflyasiya həddinin 2%-lik hədəfi aşacağına işarə edəcəyi təqdirdə federal kredit vəsaitləri üzrə faiz dərəcələrinin artırılması ağlabatan olacaq", - deyə protokolda qeyd olunub.

Bununla yanaşı, protokolda qeyd olunub ki, FES-in rəhbərliyində təmsil olunan bəzi şəxslər iyunadək statistik göstəricilərin iqtisadiyyatda ümumi tendensiyalarla bağlı nəticə çıxarmağa imkan verməyəcəyindən ehtiyatlandıqlarını deyiblər.

Yeri gəlmişkən, bazar iştirakçılarının 32%-i ABŞ-da faiz dərəcələrinin artırılacağı ehtimalının olduğunu deyir. Mayın 16-da bu göstərici 4% təşkil edirdisə, protokollar açıqlanana qədər bu ehtimal 16%-dək yüksəlib.

Qeyd edək ki, ABŞ-ın Əmək Nazirliyinin məlumatına görə, martla müqayisədə apreldə istehlak qiymətlərinin artımı sürətlənib. Belə ki, ötən ay istehlak qiymətləri 0,4% artıb. İllik inflyasiya isə 1,1%-ə yüksəlib.

Xatırladaq ki, komitənin növbəti iclası iyunun 14-15-də keçiriləcək.



# Bakıda kredit borcunu silən haker dəstəsi tutuldu

**Respublikanın daxili işlər orqanları informasiya texnologiyalarından istifadə edilməklə törədilən kibercinayətlərlə mübarizə sahəsində əməliyyat tədbiri həyata keçirib.**

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşları tərəfindən keçirilən xüsusi tədbirlər nəticəsində müəyyən olunub ki, Bakı şəhər sakinləri Rüstəm Ənsərov və Firudin Ələkbərov banklarda olan kredit borclarını qanunsuz olaraq bağlamaq məqsədilə informasiya texnologiyaları sahəsində xüsusi biliklərə malik olan paytaxt sakini Mədət Əliyevlə cinayət əlaqəsinə girərək kiberqrup yaradıblar.

M.Quliyev isə öz növbəsində xarici ölkələrdə qanunsuz fəaliyyət göstərən xaker qrupları ilə internet vasitəsilə əlaqə saxlayaraq onların texniki dəstəyindən istifadə etməklə Argentina Respublikasının "Banko Frances" və Bolqarıstanın "CİA" banklarının müştəri məlumat bazalarına kibercinayətlərdə istifadə olunması üçün nəzərdə tutulan xüsusi proqramlar vasitəsilə qanunsuz müdaxilələr edib.

Daha sonra M.Quliyev qeyd edilən bankların həmin ölkələrdəki müştərilərinin hesablarından internet vasitəsilə onlayn ödənişlər həyata keçirərək F.Ələkbərov və R.Ənsərovun Azərbaycandakı kredit borclarını qanunsuz yolla bağlayaraq adıçəkilən bankların xidmətlərindən istifadə edən vətəndaşlara külli miqdarda ziyan vurub.

M.Quliyevin istifadə etdiyi kompüterlərə baxış zamanı elektron sübutlar və iş üçün əhəmiyyət kəsb edən digər dəlillər müəyyən edilərək götürülüb.

Qeyd edilən fakta bağlı Baş İdarənin İstintaq Şöbəsində cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

# Sumqayıtda kişi arvadını öldürdü, sonra intihar etdi

**Sumqayıtda qətl törədilib. Sumqayıt Şəhər Prokurorluğundan lent.az-a verilən məlumata görə, H.Z.Tağıyev qəsəbəsi Dəmiryol yaşayış massivində 1987-ci il təvəllüdlü Adıgözəlov Famil Şəfi oğlu həyat yoldaşı, 1984-cü il təvəllüdlü Adıgözəlova Xalidə Alim qızını bıçaqlayaraq öldürüb. F.Adıgözəlov daha sonra özünə bıçaqla xəsarət yetirib. O, ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib.**

Faktla bağlı cinayət işi başlanıb, istintaq gedir.



# Məktəb direktorunun və xanımının adı intihar işində

## Cəlilabadın Seyidbazar kəndində intihar edən 10-cu sinfi şagirdi Vüsal Mirzəyevin ailəsindən şok ittihamlar

**Mayın 11-də Cəlilabadın Seyidbazar kəndində intihar edən 10-cu sinfi şagirdi Vüsal Mirzəyevin ailəsi oğullarının ölümünə görə kənd məktəbinin direktoru və onun həyat yoldaşını günahlandırırlar.**

**Mərhum V.Mirzəyevin dayısı Niyaməddin Mirzəyev "Qafqazinfo"ya açıqlamasında bildirib ki, bacısı oğlu direktorun həyat yoldaşı İradə müəllimənin hazırlıq kursundan çıxdığı üçün uzun müddət ona təzyiq olunub:** "Bacım oğlu Vasif Mirzəyev mayın 11-də səhər saatlarında özünü evin həyətindəki yardımçı tikilidə asıb. Uşaq səhər tezdən durub həyətdə oturubmuş, atası Rafət onu yeməyə çağırsa da, oğlu gəlməyib. Daha sonra səs-küy düşüb ki, Vasif özünü asıb. Rafət gedib görüb evin arxasında "pres ipi"ni 2 dəfə boynuna dolayıb, özünü öldürüb".

**Mərhumun dayısı N.Mirzəyev iddia edir ki, Vasifin özünü asmasına Seyidbazar kənd məktəbinin direktoru Etibar və onun həmin məktəbdə müəllimə işləyən həyat yoldaşı İradə müəllimə səbəb olub:** "Vasif sonuncu sınaqlarda 550-630 bal yığırdı. O, direktorun yoldaşının yanına hazırlığa gedirdi. Təxminən 2 ay əvvəl uşaq mənə dedi ki, müəllimə məndən dərs soruşmur, heç nə öyrətmir, onun hazırlığından çıxmaq istəyirəm. Biz də razılaşdıq, onu ordan çıxartdıq. Bu hadisədən sonra direktor da, yoldaşı da Vasiflə zidd düşdü. Müəllimənin dərsində nəsə olub, uşaqlar hamısı gülüşüb, Vasif də gülüb. Hamının içində onu ayağa qaldırıb "sən kimsən, nə gününə gülürsən? Sənə 2 verirəm, gedib gülərsən" deyib. Direktor özü də Vasifə "pozğun" deyib üstünə qışqırıb. Məhz 25 manat hazırlıq puluna görə. Vasifin sinif yoldaşlarına tapşırıb ki, heç biriniz onunla danışmayın, hamısı da elə edirdi. Uşaqlara tapşırırdı, Vasifi onlarla birgə top oynamağa qoymurdular, 7-8 nəfər yığışıb onu döyürdülər. Məktəbə gedəndə bibisioğluna deyirmiş mənim arxamca gəl, dərsə girim. Vasif gəlib mənə dedi ki, dayı, məni bu məktəbdən çıxart. Biz rayon təhsil şöbəsinə ərizə yazdıq. Müdir müavini Asif müəllim dedi ki, bu ili birtəhər yola verin, gələn il dəyişərsiz. Vüsal da dözmədi, özünü öldürdü. İntihar etmədən əvvəl "Votsap"da mesaj yazıb bibisinə göndərib".

**N.Mirzəyev həmin mesajında yazıb:** "Ətrafdakı gəncləri tanıdıqca özümü şərəfli ölümə etibar etdim. Özümü öldürmək mənim zəifliyim deyildi. Ədalətsiz gənclərin, müəllimlərin haqsız..." Son cümlə beləcə yarımçıq bitir.

**Vüsal Mirzəyevin atası Rafət Mirzəyev deyib ki, o, Bakıda işləyir, buna görə də oğlu intiharından öncə baş verənləri daha çox dayısına və bibisinə danışıb:** "Vüsal bütün sirlərini dayısına deyirdi. Mən il ərzində cəmi 1 ay evdə oluram. Amma Vüsalın məktəbdən çıxmaq məsələsində burda idim. Deyirdi ki, bezmişəm bu məktəbdən, məni çıxarın, dayımgilin kəndində, Qamışlıgöldə oxuyacağam. Biz də birlikdə gedib ərizə yazdıq, Vüsal 4-5 gün Qamışlıgölə getdi. Mən ona dedim ki, Seyidbazardakı məktəbdən çıxmaq haqda sənəd al. Çünki Qamışlıgöl kəndindəki məktəbdə adı getmirdi, özü gedirdi. Seyidbazar kəndində məktəbdə adı qalmışdı, qaib yazılırdı. Vüsal məhz o məktəbə də getmək istəmirdi. İntihar edən gün anasına deyib ki, əgər məni ora göndərsəniz, özümü öldürəcəyəm. Biz də dedik ki, bala, dərsindən qalma, get. O da özünü asdı".

**Mərhum Vüsal Mirzəyevin bibisi Vüsalə Yusifova bildirib ki, qardaşı oğlunu tez-tez məktəbdə döyürmüşlər:** "Vüsal deyirdi məni təhqir edirlər, sıxışdırırlar, adam içinə çıxmağa qoymurlar. Deyirdi bu məktəbdən bezmişəm. O məktəbdə hamı ona qarşı idi, Vüsal tək qalmışdı".

Təhsil Nazirliyindən sayta bildirilib ki, rayon təhsil şöbəsi bu işə aydınlıq gətirəcək. Cəlilabad Rayon Təhsil Şöbəsindən isə bir cümləlik cavab verilib: "Qeyd etdiyiniz məsələ cinayət hadisəsi olduğundan hüquq-mühafizə orqanlarına müraciət etməyiniz xahiş olunur".

Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov qeyd edib ki, həmin faktla bağla Cəlilabad Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanılıb. Rayon prokurorluğu və polis şöbəsinin əməkdaşları məhkəmə tibb ekspertinin iştirakı ilə hadisə yeri və meyitə baxış keçirib. Ölümün səbəblərinin müəyyənləşdirilməsi məqsədilə məhkəmə tibb ekspertizası təyin edilməklə iş üzrə istintaq tədbirləri davam etdirilir.

# Ombudsman nümayəndələri həbsdəki NİDA-çılarla görüşdü

## "MPQ-nin həkim üzvünün iştirakı ilə həmin şəxslərin bədəninə baxış keçirilib və hər hansı xəsarət aşkar olunmayıb"

**Milli Preventiv Qrupunun (MPQ) nümayəndələri NİDA Vətəndaş Hərəkatının üzvlərinin də saxlandığı Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Bakı İstintaq Təcridxanasına əvvəlcədən xəbərdarlıq etmədən baş çəkiblər. Ombudsman Aparatının mətbuat xidmətindən modern.az saytına verilən məlumata görə, başçəkmədə məqsəd saxlanılma şəraitinin və rəftarın, habelə daxil olan müraciətlərin araşdırılması, təqsirləndirilən şəxslərin hüquqlarının təmin olunması, o cümlədən müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olub.**



Başçəkmə zamanı MPQ üzvləri tərəfindən həmin müəssisədə saxlanılan təqsirləndirilən şəxslər Bayram Məmmədov və Qiyas İbrahimov təkbətək qəbul edilib. Məlumatda qeyd edilib ki, MPQ-nin həkim üzvünün iştirakı ilə həmin şəxslərin bədəninə baxış keçirilib və hər hansı xəsarət aşkar olunmayıb.

Həmçinin onların saxlanılmalarının qanuniliyini təsdiq edən sənədlərə, tibbi kitabçalarına baxış keçirilib. Baxış zamanı müəyyən edilib ki, həmin şəxslər Bakı İstintaq Təcridxanasına gətirildikləri zaman ilkin tibbi müayinədən keçiriliblər və müayinə zamanı onların bədən səthində xəsarət izi aşkar edilməyib.

B.Məmmədov və Q.İbrahimov bu müəssisədə saxlanılma şəraitindən və rəftardan razı olduqlarını, ailə üzvləri ilə maneəsiz telefon əlaqəsi yaratdıqlarını, sovqat qəbul etdiklərini, vəkillə görüşdüklərini bildiriblər.

Başçəkmə çərçivəsində başqa şəxslər də qəbul edilib və onlar hər hansı bir narazılıqlarını bildirməyiblər. Qəbul zamanı onlara hüquqları, müvafiq qanunvericiliyin tələbləri, ombudsmanın səlahiyyətləri izah edilib, hüquqi məsləhətlər verilib. Başçəkmənin nəticəsi ilə bağlı Baş Prokurorluğa məlumat verilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 109 (6430) 20 may 2016



Vural Altay

# Ermənistanın Naxçıvan təxribatlarına Ankaradan sərt xəbərdarlıq

**Türkiyə XİN rəsmisi Vural Altay:** "Naxçıvana yönəlik təhdidlərin artdığı halında Türkiyə istənilən addıma hazır olacaq"; Qardaş ölkənin diplomatı bölgəni "atom silahı" ilə təhdid edən Ermənistana mesaj verd; hərbi və siyasi ekspertlər Vyana görüşündən sonrakı durumla bağlı nələr düşünür?

**Həmsədr ölkələrin xarici siyasət idarələrinin rəhbərlərinin birbaşa iştirakı nəticəsində baş tutan Azərbaycan və Ermənistan prezidentlərinin Vyana görüşü də cəbhə bölgəsində stabilliyə gətirib çıxartmadı. İşğalçı ölkə özünün günbəgün artan aqressiv davranışları, təmas xətti və dövlət sərhədləri boyunca atəşkəsi kobud pozması ilə mahiyyətini bir daha ortaya qoymaqdadır.**

Azərbaycanın Müdafiə Nazirliyinin son sutkadakı durumla bağlı yaydığı rəsmi məlumat da bunu sübut edir. Məlumatda deyilir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 60 millimetrlik minaatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 123 dəfə pozub. İşğalçı ölkə yenə də dövlət sərhədi, həmçinin Qarabağ sərhədindən mövqelərimizə, yaşayış məntəqələrimizə atəş açıb. Bu isə düşmənin islaholunmazlığı barədə qəti rəyi bir az da möhkəmləndirən vəziyyətdir.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu** "Yeni Müsavat"a durum dəyərləndirməsi edərkən bildirib ki, prezidentlərin Vyana görüşü nəticəsiz qaldığına görə Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinə ümid yenə azaldı: "Ermənistan nə qeyd-şərtsiz Dağlıq Qarabağ ətrafındakı rayonları azad etməyə hazırlaşır, nə də ki, böyük dövlətlər bununla bağlı İrəvana təzyiq etməyi planlaşdırır. Görünür, 4 günlük savaş kifayət deyilmiş, işğalçıya daha güclü təzyiq lazımdır. Prezidentlərin iyun ayının sonundakı növbəti görüşünə qədər cəbhə bölgəsində atəşkəsə ciddi riayət ediləcəyini də düşünmürəm. Elə Vyanada görüşün getdiyi saatlarda da atəşkəs pozulurdu".

**Atəşkəs zonasındakı vəziyyətin monitorinqi ilə əlaqədar təşəbbüslərdən bəhs edən politoloq ATƏT-in təmas xəttində insidentlərin araşdırılması ilə bağlı tərkibini artırmaq istəyini də şərh etdi:** "Belə çıxacaq ki, ATƏT müşahidəçiləri öz torpaqlarımızı azad etmək üçün bizə qadağa qoyurlar. Ona görə də bu mexanizmin işləyəcəyini zənn etmirəm. Ona qalsa Rusiyanın keçmiş prezidenti Dmitri Medvedyevin 2011-ci ildə Azərbaycan və Ermənistan prezidentləri ilə keçirdiyi görüşdə də insidentlərin araşdırılması ilə bağlı razılıq əldə olunmuşdu. Ancaq o razılıq da işləmədi, işləyə də bilməzdi. Ermənistan Dağlıq Qarabağ ətrafındakı rayonları boşaltmayana qədər nə insidentlərin araşdırılması, nə də atəşkəsə riayət etmək mümkündür. Ermənistan prezidenti Serj Sərkisyanın özü də Vyanadakı sözlü razılaşmaların işləyəcəyinə əmin deyil. Bunu onun erməni jurnalistlərə verdiyi açıqlamadan da anlamaq olar. Deməli, hər iki tərəf yenə öz bildiyini edəcək. Ermənistan işğalı uzatmağı, Azərbaycan isə işğalçıya təzyiqi artırmaq siyasətinə üstünlük verəcək".

**Hərbi ekspert Üzeyir Cəfərov isə dedi ki, Vyana görüşünün də digər bundan əvvəlki 20 dəfə prezidentlər arasında keçirilmiş və nəticəsiz olmuş görüşlərdən biri kimi olacağını ilk gündən gözləyirdi:** "Özü də bu görüş erməni tərəfindən daha çox ATƏT-in Minsk Qrupuna çox vacib idi və onları təbrik etmək olar. Bu şəxslər 22 il ərzində ən xırda belə müsbət bir nəticəyə imza atmadığı halda, Vyanada əlavə mandat aldılar. Onlara əməkdaşlarının sayının artırılması, həmçinin onlara verilən mandatın səlahiyyət çərçivəsinin də bir az da genişləndiriləcəyi qərarı verildi. Qarabağ münaqişəsinin nəhayət ki, öz həllinə doğru bir addım atılacağı haqda ölkəmizdə olan gözləntilərin bu şəkildə yekunlaşması, sözsüz ki, hər birimizi çox narahat edir. İndi də Ermənilərin açıq havadarı rolunda olan Rusiya məsələnin iki prezident arasında gələn ay davam etdiriləcəyini qeyd etdi. Deməli, faktiki olaraq işğalçıya daha bir ay vaxt tanındı ki, bu müddət ərzində onlar, nəhayət, doğru qərar qəbul etsinlər". **Lakin hərbi ekspert Ermənistana və onun cinayətkar rəhbərlərinə heç vaxt inanmadığını vurğuladı:** "Bütün baş verənlərin fonunda, xüsusən də aprelin əvvəllərində silahlı qüvvələrimizin qarşısını alan Rusiya bir daha Vyanada sübut etdi ki, bunlara əsas olan Qarabağ savaşının həlli deyil, daha çox öz vassalları olan Serj Sərkisyan komandasının hər vəcdlə qorumaqdır. Şəxsən mən əlimi hələ də üzməmişəm, yəni Qarabağ məsələsində bizim haqlı mövqeyimizin tez bir zamanda öz müsbət həllini tapacağına çox ümid edirəm. Hər şeyi öz adı ilə çağırmaq lazımdır. Ölkəmizdə əhalinin yarıdan çoxu hələ də bu münaqişənin tez bir zamanda ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə inanır və ümid bəsləyir. Onu da qeyd edim ki, 2016-cı il aprelin əvvəllərində cəbhədə baş verənlər 1994-cü ildən bu yana ən ciddi və hər iki tərəfdən insan və digər itkilərə gətirib çıxaran silahlı toqquşma oldu. Ona görə də hələ də müxtəlif təhlillərə və təkliflərə rast gəlirik. Amma şəxsi düşüncəmə görə, bəlkə də Vyana görüşü iki ölkə prezidentlərinin bu şəkildə və bu tərkibdə sonuncu görüşlərindən biri idi. Qarabağla bağlı Azərbaycanın xeyrinə hər hansı irəliləyiş olduğu zaman Ermənistan hər dəfə mütləq ya aranı qatır, ya da prosesi aktiv şəkildə pozmağa çalışır. Bu da elə belə baş vermir. Ermənilərin cinayətkar rəhbər şəxsləri və havadarları onları aktiv şəkildə istədikləri istiqamətdə yönləndirməyi bacarırlar".

Düşmən ölkə aprel toqquşmalarında iştirak etməsi, ağır itkilər verməsi ilə Qarabağ separatçılarının arxasında gizlənmək siyasətini iflasa uğratmış oldu. Daha heç kimi inandırmaq olmaz ki, Qarabağda güclü Azərbaycan ordusu ilə döyüşən Qarabağ separatçılarının qanunsuz silahlı birləşmələridir. Lakin işğalçı yenə də cidd-cəhdlə çalışır ki, Xankəndini "tərəf" olaraq danışıqlar masasında oturtsun və bunun üçün müxtəlif hiylələrə əl atır, Bakını ittiham edən çeşidli mövqelər sərgiləyir. İrəvanın bütün istəyi Qarabağdakı separatçıların tərəf olmasına yönəlib. İki gün əvvəl Ermənistan parlamentinin hakim Respublikaçılar Partiyasından olan deputatı Artak Davtyan da iddia edib ki, Dağlıq Qarabağın separatçı rejiminin nümayəndəsinin Vyana görüşündə iştirak etməməsinə səbəb Azərbaycanın bunu istəməməsi olub. Təbii ki, Bakı birmənalı şəkildə Qarabağ separatçılarının tərəf kimi prosesdə iştirakını rədd edir. Azərbaycanın güzəşti o ola bilər ki, erməni icması Azərbaycan icması ilə görüşsün. Elə Azərbaycan XİN-in son açıqlaması da bu qənaəti möhkəmləndirir. "Ermənistan parlamentinin hakim Respublikaçılar Partiyasından olan deputatı Artak Davtyanın Vyanada keçirilmiş görüşdə Dağlıq Qarabağ kriminal rejiminin nümayəndəsinin iştirak etməməsinə Azərbaycan tərəfinin razılıq verməməsinin səbəb olması barədə söylədikləri ağ yalandır və həqiqətə uyğun deyil". Bunu virtualaz.org-un sorğusuna cavab olaraq Azərbaycan XİN mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.

"Azərbaycan prezidenti İlham Əliyevlə Ermənistan prezidenti Serj Sərkisyan arasında keçirilmiş görüşdə Qarabağ separatçılarının iştirakı ilə bağlı təklif heç kim, o cümlədən Ermənistan nümayəndələri tərəfindən irəli sürülməyib" deyə, H.Hacıyev bildirib. "Bütün dünya ictimaiyyəti yaxşı bilir ki, Ermənistan Azərbaycan torpaqlarını işğal edib və buna görə də münaqişə iştirakçısı kimi bütün məsuliyyət erməni tərəfinin üzərinə düşür", - XİN mətbuat xidmətinin rəhbəri deyib.

***

Vyana görüşü ərəfəsində düşmənin Naxçıvan sərhədlərimiz boyunca təxribatlar törətməsi diqqət çəkdi. Aprel döyüşləri zamanı və ondan sonra israrla Rusiyanın və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının açıq dəstəyini almağa, buna görə Türkiyənin döyüşlərdə "izinin olduğunu" sübut etməyə çalışan işğalçı ölkə bu gün də Azərbaycanın Naxçıvan bölgəsini atəş altında saxlamaqla istəklərini reallaşdırmaq istəyir. Fakt budur ki, Qars müqaviləsinə görə, Naxçıvan Türkiyənin qarantiyası altındadır və hər hansı təhlükəli vəziyyət halında qardaş ölkə hərəkətə keçə bilər. Müşahidəçilərin fikrincə İrəvan Ankaranın "Naxçıvan istiqamətində hərbi aktivliyinin artması" əsas gətirərək Rusiyanın hərbi bazalarını da prosesə qoşmaq, beləliklə Qarabağın işğalını yeni bir problemlə arxa plana keçirib, üstəlik, gərginliyin Rusiya-Türkiyə müstəvisinə adlamasına nail olmaq istəyir.

**Türkiyə Xarici İşlər Nazirliyinin Qafqaz, Orta Asiya və Şərqi Avropa ofisinin baş direktoru Vural Altay "Yeni Müsavat"ın vəziyyətlə əlaqədar sualını cavablandırarkən narahatlığa əsas olmadığını bildirib:** "Ermənilərin Naxçıvana yönəlik təxribatlarını biz şiddətli şəkildə qınayırıq. Bir müddət öncə də bununla bağlı etirazımızı bildirdik və Ermənistanın bu təhdidlərə və təxribatlara son verməsini istədik. Çünki Naxçıvan Türkiyənin böyük önəm verdiyi bölgədir. Türkiyə Naxçıvanın təhlükəsizliyinə qarantiya verən ölkələrdən biridir. Naxçıvana yönəlik təhdidlərin artdığı halında Türkiyə istənilən addıma hazır olacaq".

Türkiyə XİN rəsmisi onu da vurğuladı ki, aprelin əvvəllərində baş verən Ermənistan - Azərbaycan hərbi qarşıdurması rəsmi Ankaranı da ciddi narahat edib: "Türkiyə olaraq bizim mövqeyimiz Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində, sülh yolu ilə həll edilməsidir. Bu məsələ ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var. Təbii ki, barış yolundan bəhs edərkən ATƏT-in Minsk Qrupunun fəaliyyətini nəzərdə tuturuq. Biz Minsk Qrupunun fəaliyyətinin artırılmasını və prosesin sürətləndirilməsini arzulayırıq".

**Türkiyəli diplomat işğalçı Ermənistanın bölgəni "atom silahı" ilə təhdid etməsinə də reaksiya verdi:** "Barışdan bəhs edərkən, atom silahı ilə təhdid etmək heç kəsə fayda verməz. İstəyən hər kəs kimyəvi silaha da malik ola bilməz, bunu unutmamaq lazımdır. Düşünürük ki, Ermənistanın belə bir imkanı yoxdur və təbii ki, ola bilməz. Üstəlik, belə bir silahdan istifadə insanlığa qarşı cinayətdir".

Türkiyədə də bunu dəqiq bilirlər ki, Ermənistandakı anti-Rusiya çıxışları əslində gerçək mənzərəni əks etdirmir. Çünki işğalçı ölkənin arxasında dayanan Kreml siyasəti olmasaydı, cırtdan, zəif Ermənistan ən azı aprel əməliyyatlarından sonra bir gün də olsun Qarabağda əsgər saxlamaz, əraziləri tərk edərdi. Qardaş ölkədə bunu da yaxşı anlayırlar ki, Rusiyanın Ermənistanda hərbi mövcudluğunu günbəgün artırması, 40 illik hərbi əməkdaşlıq, İrəvana silah-sursat göndərilməsi əslində təcavüzün dəstəklənməsinə yönəlib. Lakin heç bir halda Ankara Azərbaycanı tək buraxmaq niyyətində deyil.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Cavid TURAN

YENİ MÜSAVAT
N 109 (6430) 20 may 2016







# İranla ortaq banklardan nə qazanacağıq?

## Vahid Əhmədov: "O zaman bizdən İrana daha çox valyuta axacaq"

**Mayın 16-da Tehranda Azərbaycan və İran mərkəzi banklarının sədrləri arasında görüş keçirilib. Söhbət zamanı İran Mərkəzi Bankının sədri Vəliyullah Seyf broker əməliyyatlarının həyata keçirilməsi üçün təklif edib ki, Azərbaycan və İran bir neçə bank təsis etsin və həmin banklar qarşılıqlı nümayəndəliklər açmaq imkanına malik olsunlar.**

İran Mərkəzi Bankının sədri Azərbaycan və İran arasında fəaliyyət göstərəcək banklar vasitəsilə müştərək məsələlər haqqında daha çox razılıqların əldə olunmasını istəyib: "İki ölkənin ticarət əlaqələrinin asanlaşdırılması üçün lazımdır ki, hər iki ölkənin mərkəzi banklarında müştərək hesablar açılsın, ixracat və idxalat və digər ticari mübadilələr bu hesablarda mərkəzləşdirilsin və vaxtlı-vaxtında nağdlaşdırılsın". V.Seyf həmçinin bank nəzarəti məsələlərində texniki təcrübə mübadiləsinin aparılmasını da təklif edib.

**Azərbaycan Mərkəzi Bankının sədri Elman Rüstəmov İrana səfərindən məmnunluğunu dilə gətirərək deyib:** "Müstəqil bankın yaradılması təklifini müsbət addım kimi dəyərləndiririk. Səfərdə məqsədimiz iqtisadi və bank sahəsində əməkdaşlıqların artırılması və Azərbaycan banklarının İranda filiallarının açılmasını təmin etməkdir. Azərbaycan və İran mərkəzi bankları arasında texniki əməkdaşlıqları alqışlayırıq. Təcrübə mübadiləsi ilə müsbət nəticələr əldə edə bilərik".

Bəs görəsən, Azərbaycanla İranın birgə bankının yaradılmasının hansı müsbət nəticələri olacaq? Bu banklar nəyə xidmət edəcək?


Vahid Əhmədov

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov bildirdi ki, iki ölkə arasında ticarət dövriyyəsinin genişlənməsini nəzərə alaraq bu cür bankların yaradılmasına ehtiyac var idi:** "Azərbaycanda əvvəllər də İran bankı fəaliyyət göstərib. Son vaxtlar Azərbaycan-İran münasibətlərinin səviyyəsinin daha da yüksəlməsi, Elman Rüstəmovun səfərindən sonra bir sıra iqtisadi müqavilələrin bağlanması, nəqliyyat sahəsində layihələrin həyata keçirilməsi, Astarada dəmir yolunun çəkilməsi və sair addımlar ondan xəbər verir ki, iki ölkə arasında iqtisadi sahədə çox ciddi irəliləyişlər gözlənilir. Bankların yaradılması da çox vacibdir. Ümumiyyətlə, İran banklarının da Azərbaycanda fəaliyyəti olduqca önəmlidir. Çünki ölkələr arasında ticarət dövriyyəsi böyüyür. Sahibkarların işini yüngülləşdirmək üçün bankların olması labüddür. Belə bankların yaradılması çoxdandır mətbuatda da müzakirə olunur. İran böyük dövlətdir və yüksək səviyyədə maliyyə ehtiyatları var. Həmçinin İran Azərbaycana investisiya qoymaq istəyən dövlətlərdəndir. Bu yaxınlarda 20-dən çox iranlı sahibkar Azərbaycanda oldu. Dərman sənayesinə, maşınqayırma, neft sənayesinə yatırım etməklə əlaqədar İqtisadiyyat Nazirliyi ilə danışıqlar apardılar. Yəni bu bankların da yaradılması da heç bir problemə səbəb ola bilməz. Əsas odur ki, onların fəaliyyəti şəffaf olsun və heç bir qaranlıq məqamlar olmasın".

**İqtisadçı ekspert Natiq Cəfərli də bankların yaradılmasının iki ölkə arasındakı ticarət dövriyyəsinə müsbət təsir edəcəyini vurğuladı:** "Əslində maraqlı bir yanaşmadır və iqtisadiyyata heç bir halda ziyan vurmaz. Bu, İranla Azərbaycan arasında olan iqtisadi münasibətlərin bank sektoru üzərindən fəaliyyətinin aparılması, gömrük ödəmələrində də rahatlığın əldə edilməsi, bank əməliyyatlarının sürətlənməsi üçün nəzərdə tutulur. Əslində yaxşı bir addımdır və yaxşı olar ki, bu banklar doğru-düzgün, şəffaf şəkildə fəaliyyət göstərsin, iş adamlarına da dəstək olsun. Çünki yaxın gələcəkdə İran regionda ən çox maraq kəsb edən dövlətlərdən biri olacaq. Sanksiyalar götürüldükdən sonra milyardlarla investisiyaların İrana cəlb olunması gözlənilir. İranın özünün infrastrukturu köhnədir, çünki bu ölkə 36 ilə yaxın sanksiyalar içində yaşayıb. İndi bu infrastrukturun yenilənməsi, yeni iş yerlərinin yaradılması İranı investisiya baxımından cazibədar bir ölkəyə çevirəcək".

**Ekspertin fikrincə, bunun-la Azərbaycanın iş adamları üçün də bir şans yaranır ki, İranda öz fəaliyyətlərini genişləndirsinlər:** "Bu banklar da əgər iş adamlarına dəstək olmaq üçün yaradılıbsa, təbii ki pozitiv addımdır və çox güman ki, yaxın gələcəkdə banklar normal fəaliyyət göstərsələr, bunun iqtisadiyyata müsbət təsirlərini biz hiss edəcəyik. Sadəcə, Azərbaycan çalışmalıdır ki, İran bazarında özünə aid olan hissəni tuta bilsin. İran coğrafi cəhətdən bizə ən yaxın ona ölkədir. Bu mənada Azərbaycan körpü rolunu da oynaya bilər, İran məhsullarının Azərbaycan üzərində, Avropaya daşınması üçün bir mərkəz ola bilər. Bu da bank sisteminin sürətlə çalışmasını tələb edir. Lakin bu banklar hər hansı şəkildə külli miqdarda vəsaitin İrandan Azərbaycana daxil olması anlamına gəlmir. Bəlkə də Azərbaycan İrandan daha çox mal və xidmət alacaq. O zaman bizdən İrana daha çox valyuta axacaq".

❑ Nərgiz LİFTİYEVA

# "Bank borclarından qurtulmaq qanunu" nədir?

## Əkrəm Həsənov: "Müflislik statusu yalnız borclardan yaxa qurtarmağa imkan verir"

**Ötən il ərzində baş verən iki devalvasiya həm də vətəndaşın müflislik məsələsini gündəmə gətirdi. Vətəndaşların bank borclarını ödəyə bilməməsi onlar üçün təzyiq vasitəsinə çevrilsə də, aidiyyəti qurumlar problemi həll etmək, yaxud əlverişli güzəşt tətbiq etmək niyyətində deyil. Daha çox dollar kreditləri ilə bağlı yaranan problem artıq böhran səbəbindən manat kreditləri ilə bağlı da var. Ekspertlər problemi çözmək üçün müflislik haqqında qanunun qəbulunu təklif edirlər. Ancaq illərdir ki, bu cür təkliflər də aidiyyəti qurumlar tərəfindən dəyərləndirilmir. Ekspertlər bildirirlər ki, müflislik haqqında qanunun qəbulu bütövlükdə cəmiyyət üçün çox vacibdir.**

**Ekspert Əkrəm Həsənov** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, müflislik haqqında qanun yalnız vətəndaşın xeyrinə deyil: "Vətəndaşı bu qanun olmasa da, istənilən halda, borca görə həbs etmək olmaz. Sadəcə, qanunun vətəndaşa xeyri odur ki, vətəndaşa imkan verir ki, həyatını, fəaliyyətini yeni səhifədən başlasın, bütün borcları silinsin. Çünki əks halda, vətəndaş ömrünün axırına kimi bir növ psixoloji təzyiq altındadır. Hamı ondan daim borc tələb edir. Vətəndaş faktiki iqtisadi fəaliyyətlə məşğul ola bilmir. Qorxur ki, nəsə əldə etsə, işləsə, pul qazansa, gəlib əlindən alarlar. Bu da əlbəttə ki, cəmiyyətə də zərərdir. Çünki vətəndaş aktiv fəaliyyətlə məşğul olmur. Amma digər tərəfdən də bu qanunun olması maliyyə sisteminin sağlamlaşdırılmasına xidmət edir. Çünki bu halda bütün digər şəxslər vətəndaşın maliyyə vəziyyəti haqqında məlumat əldə edir. Ona, məsələn, borc vermirlər. Müflislik statusu yalnız borclardan yaxa qurtarmağa imkan verir. Digər tərəfdən, məhdudiyyətlər qoyur. Vətəndaşın adı hamıya bəlli olur. Saytda bütün müflis vətəndaşların adları olacaq ki, adam kimdənsə, qohumdan, dostundan, istənilən dükandan borc istəyəndə, nisyə mal almaq istəyəndə, lizinqə mal götürmək istəyəndə istənilən şəxs internetə girib baxa bilər ki, bu adamın adı müflislərin siyahısında varmı. Adı olduğu halda, heç kəs borc verməyəcək. Digər tərəfdən, müflislik statusu almış vətəndaşa müəyyən fəaliyyət növləri ilə müəyyən müddət ərzində məşğul olmaq, müəyyən vəzifələr tutmaq qadağan ediləcək. Çünki bu insanlar artıq öz etibarsızlığını bir dəfə göstəriblər. Buna görə də cəmiyyət belə insanlarla ehtiyatlı davranacaq. Qanun cəmiyyətin müflislər haqqında məlumatlı olmasına xidmət göstərəcək. Bu da bütövlükdə cəmiyyətin maliyyə sisteminin sağlamlaşdırılmasına aparır. Çünki bundan sonrakı problemli borcların qarşısını ala bilər. Amma bu gün biz görürük ki, vətəndaşın bir neçə banka borcu var, ödəyə bilmir. Təbii ki, bundan müəyyən psixoloji sarsıntılar keçirir. Amma digər tərəfdən də cəmiyyət üçün zərərdir. Çünki bu insan gedib hansısa mağazadan borc istəyir, mağazada bilmirlər ki, onun başqalarına da borcu var və ödəyə bilmir. Bu qanun bütövlükdə cəmiyyətə xeyirdir, müsbət təsir göstərəcək".


Əkrəm Həsənov

**Ekspert qeyd edib ki, qanun layihəsi ilə bağlı indiyədək heç bir addım atılmayıb, heç bir ip ucu belə yoxdur. Ekspert bu səbəbdən layihəni yay aylarında özü hazırlamağı düşünür:** "Bir neçə ölkənin təcrübəsindən istifadə edəcəm. Müzakirəsini də müvafiq dövlət orqanına verəcəm. Gözləmirəm ki, layihə tezliklə qəbul olunsun. Ən azı, qanun layihəsinin olması bir növ insanlarımıza müəyyən ümid verəcək ki, layihə artıq var".

**Ə.Həsənovun sözlərinə görə, 2 ildən sonra prezident seçkiləri olacaq. Deməli, vaxt bankların əleyhinə işləyir. Uzağı 2018-ci ildə dövlət məsələyə müdaxilə etməyə və borcların çoxunu silməyə məcbur olacaq:** "Digər tərəfdən, banklar get-gedə zəifləyəcək və borclulara qarşı çoxsaylı və uzunmüddətli məhkəmə proseslərini apara bilməyəcək. Bankların məhkəmələri ələ alması və bütün qərarları öz xeyirlərinə çıxaracağı haqda söz-söhbət-bankların özü tərəfindən buraxılmış şayiədir. Bankların o qədər gücü və pulu yoxdur".

**Onun sözlərinə görə, işsizliyin artması, gəlirlərin düşməsi və qiymətlərin artması şəraitində təminatsız kreditlərin əksəriyyəti faktiki batıb:** "Banklar bunu başa düşür. Ona görə də çox zaman məsələni məhkəmə yolu ilə deyil, hədə-qorxu ilə həll etməyə çalışır ki, borclular vahimədən hardansa pul tapıb krediti ödəsinlər. Deməli, gəliri olmayan, yaxud az olan şəxs borcunu sadəcə ödəməməli və heç nədən qorxmamalıdır. O cümlədən faiz və cərimələrin artmasından. Borcu indi verə bilmirsə, artan məbləğləri haradan ödəyəcək ki?! Belə borclular həm də ola bilsin, onsuz da əvvəl-axır özlərini müflis elan edə biləcəklər. Buna görə də məsələnin sırf məhkəmədə həll edilməsində inad etsinlər, sonra da məhkəmə qərarını icra edə bilməmələrini bildirsinlər".

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 109 (6430) 20 may 2016

# Göylərdə ölənlər- təyyarə qəzaları...

## Hava nəqliyyatından qorxanların çıxış yolu nədədir?

**Gündəmin əsas mövzularından biri heç şübhəsiz ki, Fransadan Misirə uçuan sərnişin təyyarəsinin qəzaya düşməsi ilə bağlıdır. Zaman-zaman yerli və dünya mediasında səs-küy doğuran təyyarə qəzaları barədə yazılır. Xüsusən də qəza nəticəsində itən təyyarələr bu siyahıda üstünlük təşkil edir. İtən, qəzaya uğrayan, yanan... təyyarələrin hekayələri bəs deyincədir.**

### Qəza baş veribsə, ciddi səbəbi var...

Bu mövzu ilə bağlı ən geniş yayılan versiya odur ki, bir təyyarənin itməsinin səbəblərindən biri onun strukturunda yaranan hər hansı problemdir. Bir çox təyyarənin materialı alüminiumdandır və zaman keçdikcə erroziyaya uğrayaraq aşınmalar baş verə bilər. Digər itmə səbəbi isə pis hava şəraiti ola bilər. Doğrudur, təyyarələr ən pis hava şərtlərinə qarşı uça biləcək formada hazırlanır. Amma tutaq ki, 2009-cu ilin iyununda “Air France”’ın Rio de Jeneyro-Paris uçuşu zamanı Atlantik okeanı üzərindən keçərkən yaxalandığı sərt fırtınalar nəticəsində qəzaya uğraması tipli halların da baş verməsi mümkündür. Təyyarə qəzalarında diqqət çəkən əsas səbəblərdən biri də heç şübhəsiz ki, pilot yanlışlarıdır. Pilotun diqqətsizliyi, yuxuya dalması, sistemdəki nasazlığı diqqətə almaması avtomatik olaraq təyyarənin idarəetmədən çıxması ilə nəticələnir.

Təyyarənin bütün motorlarının sıradan çıxması da onun itməsinə və ya qəzanın baş verməsinə səbəb ola bilər. Tarix boyu bəzi təyyarələrin havada ikən partlaması nümunələri mövcuddur.

Qaçırılma ehtimalını da yaddan çıxarmayaq. Əsasən terrorçular təyyarələri planlaşdırılan yox, başqa bir aeroporta enməyə məcbur edirsə, bu, qaçırılma sayılır. Bir çox hallarda isə 11 sentyabr nümunəsində olduğu kimi, təyyarənin okeana yönləndirilməsi ehtimalı da mümkündür.

2009-cu ildə “Air France”nin Rio de Jeneyro-Paris səfərini gerçəkləşdirən, 447 saylı itkin düşən təyyarəsinin tapılması üçün aparılan axtarış və xilasetmə tədbirləri 5 gün boyunca davam etmişdi. Baş verən qəzanın səbəbi buz kristallarının “Airbus A330" tipi təyyarəsinin hava sensorlarını blok etməsi idi. Bu zaman da təyyarə Atlantik okeanına çaxılmışdı. Təyyarənin yerinin tapılması əməliyyatları nə az, nə çox, düz 3 il davam etmişdi.

“Flying Tiger Line” Hava Yollarının 1962-ci ilin martında başına gələn isə bu günə qədər yaşanmış ən böyük havaçılıq sirlərindən biri kimi qiymətləndirilir. Bu hərbi karqo təyyarəsi 90 nəfərlik əsgər heyətini Quatanamadan Filippinə aparmağa təhkim olunmuşdu. Amma bu təyyarənin “başına” nə gəldiyi hələ də bilinmir. 1.300-dən artıq insan təyyarənin qalıqlarını tapmaq üçün əməliyyatlarda iştirak etdi, amma bu günə qədər heç nə tapılmadı. Tək bilinən isə odur ki, həmin vaxt Sakit okeandan keçən bir tankerin havada partlama görməsidir. Təyyarənin Sakit okeana yaxın bir yerlərdə düşməsi təxmin edilir.

Bermud uçbucağında baş verən fəlakətli qəzaları da unutmayaq. Florida, Bermud adası və Puerto-Riko arasında qalan üçbucaqla, başqa bir sözlə desək, “Bermud üçbucağı” və orada itən təyyarələr 20-ci əsrin tarixində xüsusi yer alır. Xüsusən 20-ci əsrin birinci yarısında bu sahədə tez-tez təyyarə və gəmilərin itməsi sirr olaraq qalır.

Və məhz bu cür qəzalar insanlarda təyyarə fobiyası yaradır. Təyyarəyə minməkdən qorxanlar, səfər üçün başqa nəqliyyat vasitələrindən istifadə edənlər... Heç kimə sirr deyil ki, məhz təyyarələrin alternativ nəqliyyat növü kimi meydana çıxdığı ilk onilliklərdə insanlar daha çox qatardan istifadəyə meyl edirdilər. Bunun da tək səbəbi vardı - təyyarə qəzaları. İnsanlar təyyarə qəzalarından digər nəqliyyat vasitələrində baş verəcək qəzalardan daha çox qorxur. Bunun səbəbi isə odur ki, təyyarə qəzasından sağ çıxma ehtimalı yoxdur. Maşın və ya qatar qəzalarında ağır və yüngül dərəcəli olmaqla xəsarət alaraq qurtulmaq mümkündür.







### Təyyarə qorxusunun əsas səbəbi - nəzarəti itirmə vəziyyəti...

21-ci əsr insanlarında da təyyarə fobiyası güclüdür. Texnikanın inkişafı, yeni qorunma mexanizmləri... bunların heç biri qorxunu aradan qaldırmağa kifayət etmir. Təyyarə fobiyasının ən əsas səbəblərindən biri “nəzarəti itirmə” vəziyyətidir. İnsanın səfərlə bağlı heç bir nəzarətinin olmaması və təyyarədə olan hər hansı bir çatışmazlıqda özünü güvəndə hiss etməməsi nigaran və narahat olmasına səbəb olur. İnsanlar özlərini etibarda hiss etmək üçün vəziyyət üzərində nəzarətə ehtiyac duyurlar. Təyyarədə bunun edilə bilməməsi bəzi insanlarda narahatlığa səbəb olur.

Təyyarə qorxusunun birdən çox səbəbi ola bilər. Məsələn, daha əvvəlki təyyarə ilə səyahətlərində yaşanan pis bir hadisə adamda təyyarə qorxusunun meydana gəlməsinə səbəb ola bilər. Eyni şəkildə uşaqlıq dövrlərində təyyarə qəzaları ilə əlaqədar bir xəbər və ya bir yaxının başına gələn bir təyyarə qəzası da insanda təyyarə fobiyası yarada bilir .

Bütün bu faktorların xaricində, təyyarənin texniki mexanizmi haqqında az məlumata sahib olunmasından ötəri, təyyarənin etibarlı bir vasitə olmadığı təəssüratı bu kəslərin ağıllarında canlana bilər. Bu vəziyyətdə də təyyarə qorxusu meydana gələ bilər.

Təyyarə qorxusu olan adamlar bu nəqliyyat vasitəsinə minən kimi orqanizmində aşağıdakı hallar baş verir: döyüntü (ürək), tərləmə, ağız quruluğu, nəfəs almada çətinlik, sinədə təzyiq, ürəkbulanma, baş gicəllənməsi, ayaqların tutulması, ürək getmə, nəzarət itirmə qorxusu, ölüm qorxusu

### Qorxunu aradan qaldırmanın yolları - rahat və asan...

Bütün hallarda xəstəlik varsa, onun müalicəsi də var. Bu fobiyanın müalicəsi zamanı insanın qorxmasına səbəb olan təyyarə səfəri əsnasında çıxan səsləri təhlükə əlaməti kimi qavrayan fikirlər əvəzinə, real və konstruktiv fikirlər qoyulmasına nail olmaq lazımdır. Beləliklə də fobiyası olan insan özünü daha rahat hiss edə bilər. Təyyarə səyahətinin əvvəlindən sonuna qədər nə olacağı ilə bağlı proses təhlil edilə bilər. Beləliklə də insan səfər əsnasında nələrlə qarşılaşacağını bilib, vəziyyətə nəzarət etdiyini düşünür. Bəzilərinə nəfəs məşqi və rahatlama prosedurlarından keçmək də kömək edə bilir.

İstisna hallarda dərman istifadəsi də səfəri asanlaşdıra bilər. Lakin bu ancaq müvəqqəti həll ola bilər. Dərman yalnız həmin səyahətin daha asan keçməsini təmin edir. İnsanın uçmaq qorxusu təyyarəyə yenidən minəcəyi vaxt eyni sıxlıqda hiss edilir. Daimi həll üçün fobiyası olan şəxsin təyyarə, səfər prosesi ilə və buna nəzarətlə bağlı fikirlərinin üstündə işləmək lazımdır. Həyəcan yaradan fikirlər üzərində dayanılmalı və bunların müalicəsi əsas prioritet hesab edilməlidir. Bu həyəcanlar aradan qaldırılandan sonra fobiya öz-özlüyündə yox olacaqdır.

### İçki, hipnoz, ya... yeni tətbiqetmələr?

Bəzi psixoloqlar hesab edir ki, bəzi hallarda təyyarə qorxusu yaşayan insanları təyyarə haqda gerçəklərlə maarifləndirmək, onların qorxusunu bu yolla aradan qaldırmaq mümkündür. Qorxunun ilk başladığı halı deşifrə edib, şüur üzərinə çıxarmaq və bunu müalicə edərək, qorxunu aradan qaldırmaq müalicənin ilkin mərhələsidir. Müalicə zamanı hipnozdan da yararlanmaq mümkündür. Qorxuların müalicəsində istifadə edilən sakitləşdirici dərmanlar uçuşdan öncə istifadə ediləndə fayda verə bilir. Amma bu, həkimlər tərəfindən yazılan reseptli dərmanla həll olunsa daha yaxşı olar. Maraqlıdır ki, spirtli içkini də eyni məqsədlə istifadə edən sərnişinlər var. Burada isə bir nüansa diqqət etmək lazımdır: atmosfer təzyiqindəki dəyişikliklər və oksigen faizi dəyişdiyi üçün bəzən içkidən istifadə edən insanların halı pisləşir. Bu məqamda içkinin miqdarı düzgün seçilməli, fəsadla nəticələnməməsi üçün diqqət edilməlidir.

Məhz təyyarə fobiyası olanlar üçün hazırlanmış tətbiqetmə təyyarədən qorxanların işini asanlaşdırır. “Am I Going Down?” (“Aşağı düşürəmmi?”) adlanan tətbiqetmə smartfonlar üçün nəzərdə tutulub. Tətbiqetmə təyyarənin düşmə ehtimalını hesablayaraq qorxusu olanların sakitləşməyinə kömək edir.

Tətbiqetmədən istifadə etmək üçün səyahət məlumatlarını, ölkəni, uçacağınız təyyarənin modelini qeyd etmək lazımdır. Bu informasiyaları keçmişlə müqayisə edən tətbiqetmə qəza ehtimalının faizini açıqlayır, hər gün eyni təyyarəyə minilsə neçə il sonra qəza ola biləcəyi haqda hesablamalar aparır. Təyyarələrin qəzaya uğrama ehtimalı çox aşağı olduğuna görə rəqəmləri oxuyan adamlar sakitləşirlər və rahat uçurlar.

❑ **Sevinc TELMANQIZI**

# İcbari tibbi sığortanın tətbiqi mümkün olacaqmı?

## İcbari tibbi sığortanın Azərbaycan üzrə tətbiqi ilə bağlı yaxın aylarda sərəncam verilə bilər



**Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta (İTS) Agentliyi jurnalistlər üçün “İcbari tibbi sığortanın tətbiqi üzrə media nümayəndələrinin biliklərinin artırılması” mövzusunda təlim keçirib.**

Musavat.com-un məlumatına görə, təlimdə agentliyin fəaliyyəti və gələcək planlar barədə ətraflı məlumat verilib.

Agentliyin direktoru Zaur Əliyev çıxışında ölkədə tibbi sığortanın pilot layihəsinin tətbiqinə nə zaman başlanacağı haqda məlumat verib: “Cənab prezident tərəfindən də verilən göstəriş budur ki, bizim qurduğumuz model vətəndaşların maraqlarına xidmət etməlidir. Uzun illər bu məsələ müzakirə olunub, belə bir qurumun gec yaradılması məsələsi suallar doğurub. Bunun subyektiv və obyektiv səbəbləri də olubdur. Biz uğur qazanmaq istəyiriksə bundan sonra agentliyin gələcək fəaliyyətinə baxmalıyıq.

Biz artıq gördüyümüz işləri yol xəritəsi halına gətirib çıxarmışıq. Aidiyyəti dövlət qurumları ilə müzakirələr aparılıb və yekunlaşdırılıb. Mayın sonu və ya iyun ayının əvvəlində ölkə rəhbərliyinə təqdim edəcəyik. Bu təsdiqləndikdən sonra bizim fəaliyyətimizi tam olaraq görə biləcəksiniz. Eyni zamanda pilot layihənin həyata keçirilməsi bu ilin sonuna nəzərdə tutulub. Cənab prezident bu barədə sərəncam verdikdən sonra ictimaiyyətə geniş məlumat çatdırılacaq. Pilot layihə 6-9 ay çəkəcək. Pilot layihə sayəsində biz səhvlərimizi və çatışmayan məqamları aydınlaşdıra biləcəyik".

**Agentlik rəhbəri icbari tibbi sığortanın Azərbaycan üzrə tətbiqi ilə bağlı dəqiq vaxtın məlum olmadığını bildirir:** “Bütün ölkələrdə tibbi sığortanın tətbiqinə nəzər yetirdikdə görmək mümkündür ki, bu proses çox mürəkkəb islahatlar və zaman tələb edir. Bütün nəzərdə tutulan işlərin nə zaman yekunlaşdırılacağı və tibbi sığortanın tətbiq ediləcəyi barədə hələ dəqiq vaxt açıqlamaq mümkün deyil. İlk öncə pilot layihəni həyata keçirmək lazımdır”.

**Z.Əliyev icbari tibbi sığortanın tətbiqi zamanı hansı ölkə modelinin tətbiq ediləcəyindən də danışıb:** “Bütün ölkələrin bir məqsədi var ki, universal təminata gəlib çatsınlar. Üniversal təminat xidmətlərin bütün vətəndaşlara tətbiq edilməsi, hər kəsin yararlanması və bütün xidmətlərin göstərilməsidir. Model də elə oradan yaranır. Onsuz da bizim məqsədimiz Türkiyə, Xorvatiya və s. ölkələrlə eynidir. Məsələn, İngiltərədə Milli Səhiyyə Xidmətidir. Həmin xidmət tam dövlət büdcəsindən maliyyələşir. Amma digər Avropa ölkələrində sosialyönümlü səhiyyə xidməti qurulub. Sosialyönümlü tibbi xidmət isə vətəndaşların həmin risklərin qarşısını almaq üçün öz vəsaitlərindən də vahid hovuza cəmləyirlər. Ən dayanıqlı sistem də elə budur. Bunun tətbiq olunduğu ölkələrə nəzər yetirsək görərik ki, həmin o hovuzda cəmləşən vəsaitlərin 80 faizi vətəndaşların, 20 faizi isə dövlətə aiddir. Biz də isə bu balans düzgün deyil və biz buna nail olmaq istəyirik. Amma o demək deyil ki, vətəndaşların cibindən böyük məbləğ çıxmalıdır. Sadəcə, vətəndaş ödədiyi vəsaitin qarşılığında daha geniş təminat qazanacaq. Bu çox mürəkkəb prosesdir və Azərbaycan üçün yenilikdir. Həm bizim üçün, həm də vətəndaşlar üçün yenilikdir. Ona görə də biz bura xarici ekspertləri cəlb etdik ki, bu işi daha düzgün quraq”.

Xatırladaq ki, Milli Məclis tərəfindən “İcbari tibbi sığorta haqqında” 1999-cu ildə qərar qəbul edilib. 8 il sonra, 2007-ci ildə Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta (İTS) Agentliyi yaradılıb. Agentliyə 2015-ci ildə direktor təyin edilib.

❑ **İlkin MURADOV**




**Cümə söhbətləri**

**Bismillahir-Rahmənir-Rahim!**
**Əziz Mövlanın - İmam Mehdi Sahib-əz-Zamanın (ə.f) mövludu günlərini yaşayırıq. Bu mübarək isim, özündə ədalət və əmniyyətin bərqərar olunmasını, zülmün aradan getməsini əks etdirir. Müvafiq olaraq, Həzrətin (ə.f) zühurunun intizarında olmaq - İlahi harmoniyanın bərpası həsrətini çəkmək deməkdir. Uca Allahdan diləyimiz budur ki, cəmi iman əhlinə, cəmi bəşəriyyətə intizar fəlsəfəsini anlayıb, yaşatmaq tofiqini nəsib etsin, inşəallah!**

# Həzrət Mehdinin (ə.f) intizarı - ədalət intizarıdır

**Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com**
**İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı**



## Ən böyük vücudi sual

İnsan nə üçün xəlq olub? İnsanın yaradılışında məqsəd nədir? - kimi suallar nəinki tək müsəlmanları düşündürür. Bunlar - dinindən, dünyagörüşündən asılı olmayaraq, ümumiyyətlə bütün insanları düşündürən suallardandır. Və müvafiq olaraq, hərə bu suala cavabın axtarışını bir cür aparır.

Məsələn, bəziləri müxtəlif təcrübələr aparırlar ki, nəticəsində insanın nə səbəbə yaranmasını başa düşsünlər. Sözsüz ki, təcrübələr nəticəsində bəşəriyyət bir çox lazımlı bilgiləri əldə etmişdir. Bundan əlavə, insanın hiss orqanları ilə duya bilmədiyi kateqoriyalar var ki, empirik yollarla onların da cavabı tapılmışdır. Amma, göstərilən sual o suallardandır ki, insan onun cavabını təcrübi yolla müəyyən edə bilməz!

"İnsan nə üçün xəlq olub?» sualı əslində elə kateqoriyaya aiddir ki, ona əqli yolla, təhlillə getmək, sonra nəqli mənbələrə müraciət etməklə cavablandırmaq gərəkdir. Mahiyyət etibarilə, insan təhlili yolla onu tapır ki, məhz hansı mənbəyə müraciət etməlidir.

İlk əvvəl, insan düşünüb bilə nəticəyə gələcəkdir ki, onun bir yaradanı, xəlq edəni var. Xaliq, vücudverən olmasaydı, insan dünyaya gəlməzdi. Axı insan özünəkafi bir varlıq deyil, vacibəl-vücud, yəni, varlığı öz-özlüyündə vacib olan bir varlıq deyil. Demək, onu bir kənardan yaradan lazımdır, ona vücud verən, dünyaya gəlişinə səbəb olan bir varlıq gərəkdir.

Sonra insan düşünüb anlaya bilər ki, onu yaradan varlıq mütləq kamal sifətlərə malik olmalıdır, çünki, naqislik - ehtiyac gətirən xüsusiyyətdir və ehtiyaclılıq isə Vacibəl-vücudluqla ziddiyyət təşkil etdiyindən, qeyri-mümkündür. Düşünsə, insan anlayar ki, hər nə gözəl bir şey varsa, Yaradanına məxsusdur və hər nə ki, çirkinlikdir - Ondan uzaqdır.

## Peyğəmbər (s) və İmamların (ə) məsumluğu

Sonra insan onun anlamına gələr ki, bəs Rəbbim məni yaradıb, başlı-başına buraxmazdı. Ona uyğun olmazdı ki, insanı yaratsın, amma istedadlarının üzə çıxmaq yolunu göstərməsin, yaxşını-pisi bəlli etməsin. Beləliklə, insan düşüncələrini davam etdirib, anlayar ki, Yaradanı tərəfindən məlumatı çatdıran xüsusi vəzifələndirilmiş insanlar olmalıdır və həmin insanlar məsum olmalıdırlar - heç bir halda günah və hətta xataya yol verməyən olmalıdırlar. Çünki günah etsə, çatdırdığı məlumatın mötəbərliyi itər, hətta səhv, yanlış, təhrif olunmuş məlumatlar çatdırıb, insanları çaşqınlığa, əyri yola düçar edə bilər. Belə olsaydı, Uca Allah (nəuzubillah!) mənasız iş görmüş olardı - necə ola bilər ki, məlumatı insana çatdırmaq istəsin, amma bunun dürüstlüyünün qeydinə qalmasın! Mənasızlıq isə Rəbbin mübarək zatına zidd bir məfhumdur, çünki, naqislikdir və ehtiyac gətirəndir. Deməli, peyğəmbərlər mütləq məsum olmalıdırlar.

Daha sonra insan anlayar ki, Peyğəmbərin (s) Allah dərgahına getməsindən sonra, onun gətirdiyi təlimi anlaşdıran, izah edən xüsusi insanlar - İmamlar (ə) olmalıdır və yuxarıda göstərilən səbəbə görə, onlar də məsum olmalıdır ki, məlumatın çatdırılmasında təhrif olmasın.

## İbadət nədir?

Beləliklə, insan əqli yolla orayadək yetişir ki, suallarının cavabını almaq üçün hansı mənbəyə müraciət etməlidir. İlahi Kitaba müraciət edir və "Zariyat" surəsinin 56-cı ayəsində oxuyur: **"Cin və insanları yalnız Mənə ibadət etmələri üçün yaratmışam".**

Beləliklə, aydın olur ki, insanın xəlq olunmasının, yaradılmasının hədəfi - ibadətdir. İnsanın mövcudiyyətinin fəlsəfəsi - ibadət etməkdədir. Yaxşı, bəs bu "ibadət" anlamında nələr əhatə olunur? Bax bu, əsas mövzudur. İbadət tək namazla, orucla bitmir. Yaxşılıqlara dəvətlə, pisliklərdən çəkindirməklə, cihadla, həcclə, xüms-zəkatla bitmir ibadət. Bunlar çox mühümdür, lakin mövzu bunlarla məhdudlaşmır. İbadət - insanın İlahi xidmətdə bulnmağıdır. Allahın məsləhət bildiyini etməsi və qadağan etdiyindən çəkinməsidir. Ümumi halda ibadət - insanın özünü bəndəlik orbitinə daxil etməsidir. Həzrət Peyğəmbər (s) və İmamların (ə) mübarək yolu ilə getməsi, onların addımları ilə addımlarını qoymasıdır ibadət. İnsan riyaziyyat oxuya, kimya ilə, fizika ilə məşğul ola, fransız dili oxuya, ev işləri ilə məşğul ola, bədii ədəbiyyat oxuya, idman edə bilər - niyyəti İlahi rizayət, Allahın razılığı olarsa, bu, ibadətdir.

İslamın ən böyük gözəlliklərindən biri məhz burada gizlənmişdir. İslamda dünyəvi və qeyri-dünyəvi elmlər yoxdur. İslamda Allaha xatir və nəfsə xatir anlamları var. Ona görə də bütün səylərə baxmayaraq, qaraguruhçuluğu İslama yapışdıra bilməyirlər. İslam öz elmiliyi, daxili cazibəsi ilə insanları haqq yola dəvət etməkdədir.

## İbadətlərin ən üstünü hansıdır?

Yaxşı, indi ki, ibadət belə bir mühüm kateqoriyadır, mütləq gərək təhlil edək görək ki, bunların ən üstünü hansıdır? Axı ibadətlərin xüsusilə təkidliləri var, ümdələri var. Ötən bəhslərdə toxunduq ki, namazın, orucun, zəkatın nə dərəcədə böyük əhəmiyyətləri var. Bunlar bünövrədir, bunlar olduqda digərləri barədə danışıla bilər. Nədir ibadətlərin zinəti? Bu sualın cavabını, təbii ki, dinimizdə axtarırıq. Həzrət Peyğəmbərdən (s) nəql edilən mübarək hədisdə bildirilir: "İbadətlərin ən əfzəli, ən üstünü - (Zəmanə İmamının) fərəcinin intizarında olmaqdır".

Peyğəmbərimiz (s) buyurur ki, Zəmanə İmamının (ə.f), gözlərdən qeyb olmuş Həzrətin (ə.f) zühurunu gözləmək - ən üstün ibadətdir. İntizarda bütün digər ibadətlər əhatə olunur, özü də ən yüksək səviyyədə.

"İntizar" sözünün mənasına gəldikdə, burada çoxlu mənalar vardır: "İntizar - gözünü yola tikmək deməkdir. Bu, həm də kiminləsə görüşməyi və ya hadisənin baş verməsini anbaan gözləməkdir. Digər məna odur ki, bir kəsin, ya nəyinsə ümidinə qapılmaq. Və ya əziz şəxsdən, mühüm hadisədən nigaran olmaq. Hər an xəbər gözləmək.

Dediyimiz intizarda bunların hamısı vardır. Həm gözlərin yolda qalması, hazırlıq, nigaranlıq, ümid və sair. Amma Həzrət Mehdinin (ə.f) intizarında bunlardan əlavə, xüsusi çalarlar da vardır. Ariflər buyururlar ki, **"Bu, yəqinin cövhəri, təqvanın qaymağı, saleh əməlin xülasəsidir".**

Bir adam ki intizarda bulunur, şəkk-şübhə ona aid deyil. Bu, yəqin əhlidir - Allaha, Peyğəmbərə (s), Əhli-Beytə (ə) yəqini vardır. Haramlardan çəkinəndir. Elə bir daxili haləti vardır ki, onu pisliklərdən qoruyur. Həzrət Mehdinin (ə.f) intizarında olanın gözəlliklərə eşqi var, yaxşılıqlara iltizamı, kamallara şövqü var. O şəxs pisliklərin, mənfiliklərin aradan getməsinin intizarındadır, ədalətin, İlahi harmoniyanın gəlişinin intizarındadır. Fərdlərin, toplumların kamallaşmasına intizarı var. Yerin, göyün, hər şeyin yaradılışının hədəfi insandır və buna görə intizarda olan şəxs bütün istedadların, kamalların zirvəyə çatmasını istəyir. Bəşəriyyətin çiçəklənməsini istəyir.

**Fərəcin intizarı** - hədəfi tapmaq üçün, məqsədə çatmaq üçün, qurmaq üçün edilən bir səydir. Mövlanın (ə.f) intizarında olmaq - ona iqtida etmək, ona beyət etmək, itaət etmək deməkdir. Bu intizar - sabitqədəmliyin rəmzidir, istiqamət və ardıcıllığın, fədakarlığın sirridir. 14 əsrdir əzirlər, vururlar iman əhlini, amma sındıra bilmirlər. Bunun sirri məhz intizarda - umidlə, yəqinlə, kamala səylə səciyyələnən bir durumdadır.

**İntizar** - inkişafın amilidir, müqavimətin əsasıdır, qələbənin zaminidir. Müntəzir olan daima dinamik hərəkətdədir. İntizar - hər baxımdan bəşəriyyəti inkişafa aparan amildir. Əqidənin səngəridir, düşüncənin gözətçisidir, İslamın və Quranın qələbəsinin gözləntisidir intizar.

## Allah Təala Həzrət Mehdini (ə.f) sevənləri sevir

Dinimiz bu mətləbləri son dərəcədə mühüm bilir. Həzrət Peyğəmbərdən (s) nəql edirlər: **"Hər kəs ki, Zəmanə İmamını tanımayan bir vəziyyətdə ölsə, cahiliyyə dövrünün ölümü ilə dünyadan getmişdir".**

Dövrün İmamını tanımamaq, həqiqətdə dindən bixəbər olmaq deməkdir. Bu barədə Peyğəmbərimizdən (s) nəql edilən hədisdə bildirilir ki, Allah Təala ona xitabən buyurub: **"Ya Muhəmməd (s)! Əgər bəndələrimdən biri, o qədər Mənə (yəni Mütəal Allaha) ibadət edə ki, bunun şiddət və çoxluğundan həlak ola, lakin, Mənim görüşümə onların (zəmanə İmamlarının) rəhbərliyini inkar edən bir durumda gəlsə, o şəxsi atəşə daxil edəcəyəm. Ya Muhəmməd! İstəyirsən İmamları görəsən? Peyğəmbərimiz buyurdu: bəli. - Bir addım irəli at və nəzər sal".** E. və Qaim Hüccət onların arasında parlaq bir ulduz kimi idi. Dedim: "Pərvərdigara! Bunlar kimlərdir?". Buyurdu: "Bunlar İmamlardır və bu da Qaimdir. Halalımı halal bilər, haramımı haram. Düşmənlərimdən intiqamımı alar. Ya Muhəmməd! Sev onu ki, Mən onu sevirəm və onu sevənləri sevirəm".

Uca Allahdan diləyirik ki, bizləri, bütün inanc əhlini Həzrət Mehdini (ə.f) həqiqətdə sevənlərdən qərar versin, inşəallah!

## Bu gecə əliboş qayıdan olmaz

**Həzrət Mehdinin (ə.f) yüksək dərəcəsini vurğulayan dini mətnlərə diqqət edək. Həzrət Rəsulullahdan (s) nəql edirlər:** "Mehdi - mənim övladlarımdandır. Adı adımdan, künyəsi künyəmdəndir".

**İmam Cəfər Sadiqdən (ə) nəql edirlər:** "Həzrət Qaimin mövlud gecəsi dünyaya gələn insan mömin olar. Və əgər şirk torpağında dünyaya gəlsə, Allah Təala onu İmamın (ə.f) bərəkəti ilə imana tərəfə çəkəcək".

**İmam Muhəmməd Baqirdən (ə) Həzrət Mehdinin (ə.f) mövlud gecəsi ilə bağlı nəql edirlər:** "O gecə, Qədr gecələrindən sonra ən üstün gecələrdəndir. Allah Təala o gecə bəndələrinə Öz fəzlindən əta edər və onları Öz kəramınə xatir bağışlayar. Bu, bir gecədir ki, Allah Təala Öz müqəddəs zatına and içmişdir ki, heç bir istəyəni əliboş geri qaytarmayacaq, o kəslərdən savayı ki, Allahdan günah bir şeyi diləyərlər».

**Başqa bir mübarək hədisdə Həzrət Mehdi (ə.f) özü barədə buyurur:** "Mən vəsilərin xatəmiyəm. Və mənim vasitəmlə Allah Təala əhlimdən və tərəfdarlarımdan bəlaları geri qaytarar".

**İmam Həsən (ə) buyurur:** l(Allah Təala Qaimin) mövludunu gizli və müqəddəs varlığını qeyb pərdəsi ilə saxladı ki, qiyamı vaxtı heç kimin beyəti onun üzərində olmaya».

Burada dərin bir mətləb açıqlanır. Bildirilir ki, İmam Zaman ağanın (ə.f) dünyaya gəlişinin gizli saxlanılmasının və sonradan vücudunun qeyb pərdəsi arxasında saxlanılmasının səbəblərindən biri də odur ki, onun zühuru zamanı heç bir zalım hökmdar deyə bilməsin ki, bəs o, mənim hakimiyyətimi tanımışdır. Allah Təala dünyanı ədalətlə dolduracaq əziz İmamın (ə.f) gəlişini təcili etsin və bizləri bu mübarək zühuru tezləşdirənlərdən qərar versin, inşəallah!

**Allahım, bizləri həqiqi müntəzirlik səadətinə layiqli et!**

**Allahım, bizləri Həzrət Peyğəmbər (s) və Əhli-Beytinin (ə) layiqli davamçılarından qərar ver!**

**Allahım, millətin və ümmətin qarşısında duran müşküllərin həllini inayət et!**

**Allahım, işğal altında olan torpaqların azad edilməsini, əsirlərin qurtulmasını, xəstələrin şəfa tapmasını nəsib et!**

**Allahım, Həzrət Məhdinin (ə.f) zühurunu tezləşdir! Amin!**

# Azərbaycanda "qəhrəman analar"ın az olmasının səbəbi - sosial vəziyyət, yoxsa...

## Əhməd Qəşəmoğlu: "Mən sovet dövründəki kimi uşaqların sayına görə müavinət verilməsinin tərəfdarı deyiləm"

**2016-cı ilin üç ayı ərzində əhaliyə 20,8 milyon manat məbləğində müavinət ödənilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, 5,9 min nəfər bir yaşadək uşağa görə 5,7 min ailəyə və beşdən çox uşağı olan 3,1 min qadına 9 min uşaq üçün sosial müavinət verilib. Bir sözlə, Azərbaycanda 5-dən çox uşağı olan 3 min qadına müavinət ödənilib.**

Rəqəmdən də göründüyü kimi, Azərbaycanda 5 və artıq uşağı olan qadınların sayı 3 min nəfərdən çox deyil. Halbuki əvvəllər, daha dəqiqi, sovet dönəmində bu rəqəm qat-qat yuxarı idi. Bəlkə də o dövrdə çoxuşaqlı ailələrin sayının çox olmasına səbəbi çox uşaqlılığın hər mənada dəstəklənməsi, stimullaşdırılması və əlavə güzəştlərin verilməsində idi. Məsələn, belə ailələrə avtomobil bağışlanır, növbədənkənar pulsuz mənzil və ya torpaq sahəsi verilirdi. Həmçinin onlara "Qəhrəman ana" adı verilməklə yanaşı, müxtəlif döş nişanları ilə təltif olunur, mükafatlandırılır, vaxtından öncə təqaüdə çıxarılırdı.

Vaxtilə Azərbaycan hətta keçmiş SSRİ məkanında çoxuşaqlı anaların sayına görə digər ittifaq respublikaları ilə müqayisədə ön sıralarda olub. İndi isə hər bir Azərbaycan ailəsində maksimum 3 uşaq var. Bir çox ailələrin 1 və ya 2 uşaqla kifayətlənməsinin səbəbi sosial vəziyyətlə əlaqələndirilir. Halbuki sovet dövründə sosial problemlər indikindən heç də az olmayıb. Bəs ailələrdə az uşaqlılığın gerçək səbəbi nədir?



Sosioloq Əhməd Qəşəmoğlu sosial-iqtisadi problemlərin məsələdə həlledici rol oynamadığını düşünür: "Bu, dünyanın hər yerində müşahidə olunan bir prosesdir. Harada ki, cəmiyyətin sosiallaşması yüksək səviyyədədir, əhali arasında təhsil sistemi yüksək inkişaf edib, orada ailələrdə uşaqların sayı azdır. Yəni bu, təkcə Azərbaycana aid deyil. Mənim özümün uşaqlığımda yadıma gəlir ki, hər ay dövlət qəzetində bir səhifə qəhrəman anaların siyahısı çıxırdı. O vaxt 10-dan çox uşaqlı analara "Qəhrəman ana" deyilirdi. Bu vəziyyət ölkədə əlavə sosiallaşma dərəcəsi və mənəvi problemlərlə çox bağlıdır. İndi bəzi qərb ölkələrində Şərqdə əhalinin artması yaxşı qarşılanmır və bunun qarşısını almaq üçün müxtəlif yollar axtarırlar. Bu yollardan biri də müharibədir. Məsələn, Əfqanıstanın başına bomba töksələr də, orada uşaq artımı yenə yüksək səviyyədə qalır. Yəni çətinlik, sosial, iqtisadi problemlər müəyyən rol oynayır. Bu hal dünyanın bütün inkişaf etmiş ölkələrinə xasdır. Azərbaycanda hələ ki qorxulu vəziyyət yaranmayıb, əhalinin ildən-ilə azalması prosesi yoxdur, artma müşahidə olunur. Ona görə də Azərbaycanda həyəcan təbili çalmağa ehtiyac yoxdur. Fikrimə, Azərbaycanda təkcə uşaqların sayına görə ailəyə kömək etmək düzgün deyil. Çünki ola bilsin, bir ailə geniş imkanlı ailədir, orada 5-7 uşaq var və problemsizdir. Elə ailə də ola bilər ki, orada 3-4 uşaq ola bilər və hədsiz dərəcədə çətinlik içərisində olar. Həmin o müavinətlərin bir az siyasətini dəyişməyə ehtiyac var. Mən sovet dövründəki kimi sırf uşaqların sayına görə müavinət verməyin də tərəfdarı deyiləm. Ailənin maddi durumuna uyğun olaraq müavinət olmalıdır".

**Ə.Qəşəmoğlu bir ailədə 3 uşağın olmasının normal olduğunu dedi:** "1994-cü ildə təklif etdiyim ailə modeli var idi. Bir ailədə 3 uşağın olması normaldır. Ailədə tək uşaq olanda ailədə tay-tuşu olmadığı üçün böyüklərin əhatəsində olur. Onda da o, uşaq mühiti görmədən böyüyür və buna görə də eqoist olur. Bundan başqa, ailədə bir uşaq əhali artımının geri getməsi deməkdir. Ailədə iki uşaq olanda da problemlər yaranır. Çünki uşaqlar bir-biri ilə münaqişədə olur, bütün günü dalaşırlar. Buna görə də uşaqlarda münaqişəyə bir kompleks yaranır ki, daim münaqişədə olsunlar. 3 uşaq olanda isə evdə artıq uşaq cəmiyyəti, kollektivi olur. Bu, həm uşaqların normal böyüməsinə kömək edir, həm də əhali artımını normal tənzimləyir. Bir ailədə 3 uşaq olduğu halda başqa bir ailədə 1 uşaq var və elə ailə də var ki, orada heç uşaq yoxdur. Ona görə də Azərbaycan üçün ən məqsədəuyğun hal odur ki, elə bir şərait yaratmaq lazımdır ki, ailələrdə 3 uşaq olsun. Buna həvəsləndirmək istiqamətində iş getməli idi. Təəssüf ki, bu müavinətləri hazırlayanda bunun fəlsəfəsinə, elminə o qədər əhəmiyyət vermirlər. Haradansa nəsə götürüb kiməsə xoş gəlmək üçün tətbiq edirlər. Elmi əsasla formalaşmır bu siyasət. 3 uşaq olmağın üstün cəhəti həm də ondadır ki, bir uşaq qəza nəticəsində ölə bilər, ailə tamam uşaqsız qala bilər. Amma 3 uşaq olanda yaxşıdır. Ona görə də bu istiqamətdə boşluqlar var".

❑ **Günel MANAFLI**


**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**

**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**
**Tel (051) 634-40-01.**



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*
**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT

Son səhifə

N 109 (6430) 20 may 2016

# Arvadı arıqlasın deyə... soyuducuya qıfıl vurdu

Türkiyənin İzmir şəhərində 15 illik ər-arvad arasında ciddi münaqişə yaranıb. 45 yaşlı Mert Olqun xanımı Fadime Olqunun fasiləsiz yeməyindən narazı olduğu üçün cütlük tez-tez dava etməyə başlayıb. Arıq bədən ölçüləri ilə fərqlənən Mert gündən-günə kökələn xanımına bir neçə dəfə xəbərdarlıq edib. Amma buna məhəl qoymayan F.Olqun "can boğazdan gəlir" deyərək, yeməyinə fasilə verməyib. Odur ki, Mert çıxış yolunu evə usta çağıraraq, soyuducuya qıfıl vurmaqda görüb. Artıq cütlük səhər yeməyini birgə yeyir, evin kişisi işə gedəndə isə soyuducunu qıfıllayıb açarı cibinə qoyur. Evdar qadın olan F.Olqun gün boyu evdə təmizlik və televizora baxmaqla məşğul olur. Amma Mert şübhələnir ki, qonşu qadınlar həyat



yoldaşına tez-tez yemək gətirirlər: "Ona yaxşılıq etdiklərini düşünsələr də, əslində onu şişmanlıq həddinə çatdıracaqlar. Bu da bir çox xəstəliklərin başlanğıcıdır".



## Trampla Klinton arasında seçim etməmək üçün öldü

Amerikanın Virciniya ştatında yaşlı bir qadının dünyasını dəyişməsi ilə bağlı ilginc səbəb ortaya çıxıb. Bu barədə "Richmond Times-Dispatch"də nekroloq dərc edilib. Nekroloqda qeyd olunub ki, "Donald Trampla Hillari Klinton arasında seçim etmək zorunda qalan Meri Enn Nolend son məqamda Allaha pənah aparmağı tərcih edib".

"NBC12" kanalının xəbərinə görə, nekroloqu yaşlı qadının oğlu Nolend yazıb. O, bununla həm siyasi bəyanat vermək istəyib, həm də anasının yumor hissini bir daha nəzərə çatdırıb. Əslində isə 68 yaşlı qadın ağciyər xərçəngindən dünyasını dəyişib. Nolanda tibb bacısı işləyirmiş, onun 10 nəvəsi var. Qadın həyat yoldaşı ilə 46 il ömür sürüb.

2015-ci ilin avqustunda isə 63 yaşlı Eleyn Fidrix adlı amerikan öz vəsiyyətində "qəbrimin üstünə gül gətirməkdənsə, Klintona səs verməyin. Bu zaman mən daha çox xoşbəxt olacam" yazıb. Amerikada prezident seçkiləri 8 noyabrda keçiriləcək.



## 73 yaşlı nənədən əzələ şousu...

73 yaşlı nənə Cenis Lorraine bu yaşda olmasına baxmayaraq, hər gün əzələlərini inkişaf etdirmək üçün məşq edir. Cenisin əzələli bədənini görənlər təəccüblənir. 50 yaşında olanda əzələlərini inkişaf etdirməyə qərar verən nənə bu arzusunu tez bir zamanda həyata keçirib. Bu hobbisi ucbatından tənqid atəşinə tutulan nənənin ən böyük dəstək qaynağı isə 25 ildir birgə olduğu 49 yaşlı sevgilisi Devid Kendaldır. Cenis Avstraliyadakı, hətta bəlkə də dünyadakı ən yaşlı və əzələli qadın olmaqla qürur duyur.

# Ofis işçiləri daim yorğundur, çünki...

Ofis işçilərinin davamlı olaraq özlərini yorğun hiss etmələrinin səbəbi yuxusuzluq və ya ağır nahar deyil. Bu amillərin müəyyən təsiri olsa da, əsl səbəb oksigen azlığıdır. ABŞ-ın elm adamları ofis və idarələrdə karbon miqdarının yüksək olması səbəbindən işçilərin özlərini yorğun hiss etdiyini bildirirlər.

Ofisdəki karbondioksidin miqdarı açıq havada olduğundan daha çoxdur. Ventilyasiya sisteminin düzgün qurulmadığı ofislərdə çalışanların tənəffüsü ilə əlaqədar bu nisbət zərərli həddə çıxa bilir.

Araşdırma zamanı mütəxəssislər ofis, sinif, iclas otaqlarındakı və açıq havadakı karbondioksidin miqdarını ölçüblər. Güman edildiyi kimi ən sıx karbondioksid iclas otağında qeydə alınıb.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, insan sağlamlığını təhdid etməsə də, yüksək həddə olan karbondioksid insanın beynindəki qərarvermə mexanizmlərin mənfi təsir edir və yorğunluq yaradır.





## Koreyalılar gündə 4 saat 41 dəqiqə telefonla danışırlar

Cənubi koreyalılar hər gün telefonla təxminən 4 saat danışırlar. "Digieco & Nielsen" media araşdırma qrupu tərəfindən 7 min 614 ağıllı telefon istifadəçisi arasında aparılan anket nəticəsində 30-40 yaş qruplarına daxil olan cənubi koreyalıların hər gün orta hesabla 3 saat 40 dəqiqə danışdığı müəyyənləşib. Eyni yaş qrupuna aid insanların eyni zamanda gündə bir saat internetdəki oyunlarla məşğul olduğu da qeyd edilib. O biri tərəfdən, anket nəticələrinə görə, 20 yaş qrupundakılar gündə orta hesabla 4 saat 41 dəqiqə telefonla danışır və gündə təxminən 1 saat mesajlaşırlar. Hər iki yaş qrupuna aid insanlar isə həftə sonları daha az mesajlaşırlar. Bu qrupdakılar həftə sonları daha çox internetdə oyun oynamağı tərcih edir.




**QOÇ** - Qarşınızda duran məsələləri həll etmək indi daha asandır. Sadəcə, qəti qərar vermək üçün özünüzdə güc tapmalısınız. İnanın ki, belə olsa, nəticədən razı qalacaqsınız.

**BUĞA** - Bürcünüz "hakimiyyət"inin son sutkasını yaşayacaq. Deməli, daha böyük işlərlə məşğul olmalı, son vaxtlar dəb halını alan dedi-qodudan uzaqlaşmalısınız. Maddi baxımdan da yaxşı vaxtdır.

**ƏKİZLƏR** - Aktiv fəaliyyətə başlamaq üçün nəhayət ki, mühit yetişəcək. Bu səbəbdən proqnozunuzu oxuyan kimi hərəkətə keçin. Amma özünüzə müttəfiq seçərkən maksimum tədbirli olun.

**XƏRÇƏNG** - Böyük layihələri reallaşdırmaq üçün əla vaxtdır. İdeyalarınızı həyata keçirməkdə pula heyfiniz gəlməsin, axı siz xəsis deyilsiniz. Bu gün davranış və üst-başınıza ciddi fikir verin.

**ŞİR** - Aldığınız yeni iş təkliflərinə tələsik razılıq verməyin. Hər şeyi yüz dəfə ölçüb-biçin. Lazım gəlsə, daha təcrübəli insanlarla məsləhətləşin. Nəqliyyatda diqqətli olun.

**QIZ** - Genetik fonunuz gücləndiyi üçün əsasən doğmalarınıza qarşı mehriban olun. Hər hansı yersiz ittihamdan, köhnə haqq-hesabları aydınlaşdırmaqdan çəkinin. Ulularınıza duaları əsirgəməyin.

**TƏRƏZİ** - Maliyyə baxımından düşərli gün olsa da, ümumi ovqatınızda gərginlik mümkündür. Lakin bu amil işgüzar sövdələşmələrdə və qərarlar qəbul etməkdə sizə mane olmayacaq.

**ƏQRƏB** - Sevgi amilinə daha çox yer ayırın. Çünki maddiyyatı fikirləşdikcə pul sizdən qaçır. Bu gün mənəvi rahatlığınızı təmin edib enerji yığın ki, qarşıda sizi gözləyən uğurlara gücünüz yetsin.

**OXATAN** - Gün ərzində müxtəlif xarakterli insanlarla təmaslarınız sizi bəzi mətləblərdən agah edəcək. Saat 16-18 aralığında isə ürəyinizcə olan hansısa hadisənin iştirakçısı ola bilərsiniz.

**OĞLAQ** - Son vaxtlar ətrafınızda olanlara "soyuq adam" təsiri bağışlamaqdasınız. Əslində belə olmadığınız üçün daxilinizdəkiləri büruzə verməyə çalışın. Axşama doğru ovqatınız yüksələcək.

**SUTÖKƏN** - Sizin qədər arzu-istəyi olan Zodiak işarəsi yoxdur. Amma niyyətlərinizin həyata keçməsi sizdən asılı olmadığı üçün gözləməlisiniz. Axı səbrliləri Allah da sevir.

**BALIQLAR** - Göy qübbəsi məsləhət görür ki, gün ərzində dinə zidd hərəkətlərə yol verməyəsiniz. Adicə kimisə acılamaq, xətrinə dəyən zarafat da olmaz. İşlə bağlı təkliflərə razılıq verin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Maneken su altında şəkilə görə...



Tailandın məşhur modellərindən olan Olivia Ku su altında şəkil çəkdirmək istəyərkən dünyasını dəyişib. 25 yaşlı manekenin ölümünə səbəb isə su altında keçirdiyi astma krizi olub. Türkiyə mətbuatının xəbərinə görə, krizdən sonra şüurunu itirən maneken dərhal xəstəxanaya aparılıb, amma bütün müdaxilələrə baxmayaraq, onu xilas etmək mümkün olmayıb. 3 ildir həvəskar olaraq dərinliyə dalma idmanı ilə maraqlanan məşhur maneken çəkilişlər zamanı oksigen balonu taxmadığı üçün dünyasını dəyişib. Tailand polisi Olivia Kunun ölümü ilə bağlı istintaqa başlayıb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 4.750